**“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda (bundan sonra – Strategiya) nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini, icrasına nəzarəti və hesabatlılığını Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Strategiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən Strategiyada nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. icrası davam etməkdə olan konsepsiya, strategiya, dövlət proqramı, milli fəaliyyət planları və bu kimi digər sənədlərin Strategiya ilə əlaqələndirilməsi istiqamətində zəruri tədbirlər görsün;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə Strategiyada dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulmuş tədbirlərin icrası üçün tələb olunan vəsaitin dövlət büdcəsinin 2023–2026-cı illər üzrə proqnozlarında nəzərdə tutulması ilə bağlı zəruri tədbirlər görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 iyul 2022-ci il
№3378

# AZƏRBAYCAN RESPUBLİKASININ 2022-2026-CI İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAF STRATEQİYASI

## XÜLASƏ

Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında tərəqqi yolunda inamla addımlayan dövlətimiz hazırda iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşayır. Öz tarixi ərazi bütövlüyünü təmin etməklə ölkəmiz yeni qlobal reallıqlar fonunda növbəti və daha böyük transformasiya astanasına keçid edir.

Uzun illər Azərbaycanda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, onun maliyyə dayanıqlığının güclənməsini və sürətlə müasirləşməsini, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini, habelə bir çox sosial problemlərin ardıcıl şəkildə həllini və xalqın maddi rifahının yüksəlməsini, innovasiyaların sürətlə mənimsənilməsini və insan kapitalının davamlı inkişafını təmin etməkdədir.

Azərbaycan dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilmişdir. Azərbaycan beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verir, ölkəmizin təşəbbüsü və iştirakı ilə qlobal layihələr uğurla icra edilir. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaratmışdır. Bu layihələrin uğurla həyata keçirilməsi ölkəmizin regionda proseslərin inkişaf vektorunu müəyyən edən və dünya iqtisadiyyatında söz sahibi olan “qlobal oyunçu” statusunu təmin etmişdir.

Sosial-iqtisadi inkişafda dövlətin xüsusi rolu, neft sərvətinin dinamik inkişafa səmərəli və ağıllı inteqrasiyası, dövlət investisiyalarının yüksək həcmi iqtisadi quruculuğun birinci mərhələsindəki başlıca məqsədlərin – ölkənin tarixi coğrafi sərhədlərini bərpa etməklə dövlət suverenliyinin və milli təhlükəsizliyin möhkəmləndirilməsi, daxili ictimai-siyasi sabitliyin və ictimai konsolidasiyanın təmin edilməsində mühüm rol oynamışdır.

Son illərdə pandemiyanın ölkənin ixrac gəlirlərinə əhəmiyyətli təsirinə baxmayaraq, vaxtında görülmüş tədbirlər nəticəsində milli iqtisadiyyat qısa müddətdə yeni qlobal reallıqlara uyğunlaşdırılmış, makroiqtisadi stabillik təmin edilmiş və Azərbaycan bu böhrandan ən az təsirlənən ölkələrdən biri olmuşdur.

Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olur. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir.

Məhz bu məqsədlə “Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” təsdiq olunmuş və bu prioritetlərə söykənən “2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” hazırlanmışdır. Bu Strategiyanın reallaşması 2026-cı ilin sonuna ölkə iqtisadiyyatının simasında böyük dəyişikliklərə səbəb olacaq, iqtisadi artım tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacaq, xüsusilə prioritet sahələrdə artım templəri sürətlənəcək, iqtisadiyyatın və məşğulluğun dayanıqlığı daha da güclənəcəkdir.

Özəl sektorun, o cümlədən mikro, kiçik və orta sahibkarlığın inkişafı yeni və daha səmərəli stimullar və inkişaf mühiti hesabına sürətlənəcək, özəl və xarici investorların ölkə iqtisadiyyatında fəallığı artacaq, qeyri-xammal ixracı genişlənəcəkdir.

Qeyri-neft/qaz sektoruna, xüsusilə ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini təmin edən, ixrac potensialının artırılmasına və kənd yerlərində rifahın yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli aqrar istehsal və emalı sənayesinə dövlət dəstəyi və investisiyalar cəlb olunacaq, innovasiyalar, habelə dövlət–özəl tərəfdaşlığı ilə bu sahədə resurs və xidmət təminatı gücləndiriləcək.

Dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin iqtisadi səmərəsi yüksələcək, iqtisadiyyatda şəffaflıq daha da artacaq, iqtisadi idarəetmənin keyfiyyəti yeni səviyyəyə qalxacaqdır. Dövlət əmlakının özəlləşdirilməsi və dövlət–özəl tərəfdaşlığının genişləndirilməsi, dövlətə məxsus olan hüquqi şəxslərin restrukturizasiya tədbirlərinin həyata keçirilməsi, burada dövlət payının azaldılması sahəsində müvafiq işlər görüləcəkdir.

Makroiqtisadi və maliyyə sabitliyinin qorunması, dövlət büdcəsinin dayanıqlığının və səmərəliliyinin artırılması mexanizmləri təkmilləşdiriləcəkdir. Kapital bazarının inkişaf mühitində əhəmiyyətli dəyişikliklər baş verəcək, real sektorun və sahibkarlığın maliyyə xidmətlərinə və resurslarına çıxış imkanlarının genişləndirilməsi mexanizmləri gücləndiriləcəkdir.

İnsan kapitalının davamlı inkişafı və yeni keyfiyyətə transformasiyası mühiti daha da təkmilləşəcək, milli iqtisadiyyatda innovasiyaların sürətlə mənimsənilməsi üçün zəruri ekosistem formalaşacaq, ölkənin yaşıl enerji məkanına çevrilməsi və ətraf mühitin sağlamlaşması prosesləri sürətlənəcəkdir.

İnnovasiyalar təşviq ediləcək, müasir texnoloji həllərin tətbiqi genişləndiriləcək, bu əsasda iqtisadiyyatın effektivlik əsasında inkişafı və rəqabətədavamlılığı təmin olunacaqdır.

Əhalinin sosial müdafiəsi, xüsusilə həssas təbəqələrin sosial təminatı gücləndiriləcək, pensiya sistemində mühüm keyfiyyət dəyişikliyi baş verəcəkdir.

Nəhayət, ölkənin sosial-iqtisadi inkişafında tarixi dönüş dövrü və yeni strateji mərhələ olan işğaldan azad edilmiş ərazilərin bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası əsasında bu regiona böyük qayıdış təmin ediləcəkdir.

## 1. SOSİAL-İQTİSADİ İNKİŞAFA DAİR MİLLİ PRİORİTETLƏR ÜZRƏ NAİLİYYƏTLƏR VƏ ÇAĞIRIŞLAR

### 1.1. Son 10 ildə əsas nailiyyətlər

**Beş fundamental nəticə — qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah ölkənin 10 illik sosial-iqtisadi inkişaf nailiyyətlərini xarakterizə edir.** Bu nailiyyətlər uzunmüddətli dövrdə ölkə iqtisadiyyatı üçün keyfiyyətcə yeni sosial-iqtisadi inkişaf simasının formalaşmasına böyük töhfə verəcəkdir. Əldə olunmuş nailiyyətlər son 10 ildə həyata keçirilən genişmiqyaslı hədəflərə hesablanmış islahatların nəticəsidir. Tarixdə az ölkə tapmaq olar ki, cəmi 30 il ərzində belə uğur hekayəsi yaza bilsin.

**Ölkənin tarixi ərazi bütövlüyünün bərpası iqtisadiyyatın perspektiv inkişafı ideyalarının reallaşmasına zəmin yaratmışdır.** Rəşadətli Azərbaycan Ordusu tərəfindən torpaqlarımızın işğaldan azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpası xalqımızın çoxəsrlik tarixində misilsiz nailliyyətdir. Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi 30 illik dövr ərzində Azərbaycan dövlətinin daha da güclənməsi üçün aparılan uğurlu islahatların və uzaqgörən xarici siyasətin məntiqi nəticəsidir. Müharibənin ilk günlərindən etibarən xalqımız bir yumruq kimi Azərbaycan Respublikası Prezidentinin ətrafında birləşmiş, Azərbaycanın qalib ordusu bütün dünyaya öz yenilməzliyi və qəhrəmanlığını nümayiş etdirmişdir. Həm hərbi, həm də siyasi-diplomatik müstəvidə əldə edilmiş nailiyyətlər bütün dünyaya ölkənin gücünü sübut etmişdir.

**Son 10 ildə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik və dayanıqlıq təmin edilmiş, sosial rifahı dəstəkləyən iqtisadi artıma nail olunmuşdur.** Ölkədə möhkəm siyasi-ictimai sabitlik və təhlükəsizlik, uzaqgörən daxili və xarici siyasət son 10 ildə qarşıya qoyulmuş mürəkkəb sosial-iqtisadi məqsədlərin, habelə ölkənin ərazi bütövlüyünün bərpa edilməsində həlledici rol oynamışdır. Milli iqtisadiyyatın aparıcı sahələrində müasir texnologiyaların geniş tətbiqi və keyfiyyətli insan kapitalının cəlbi nəticəsində məhsuldarlıq xeyli artmış, iqtisadiyyat sürətlə şaxələnmiş və daxili istehsal qlobal dəyər zəncirinə effektiv inteqrasiya etmişdir. Azərbaycan 4-cü Sənaye İnqilabının aktiv mərkəzlərindən biri olmaqla xarici investorlar üçün böyük fürsətlər məkanına çevrilmişdir. Bu dövrdə milli iqtisadiyyat 15% böyümüş, qeyri-neft/qaz Ümumi Daxili Məhsul (ÜDM) isə 1,4 dəfə artmışdır. 2011-ci illə müqayisədə qeyri-neft/qaz ixracının 78,3% artmasına nail olunmuşdur.

**Son 10 ildə iqtisadiyyat iki qlobal maliyyə böhranından uğurla çıxmış, ölkə iqtisadiyyatı xarici təsirlərə davamlı olmuşdur.** 2014–2015-ci illərdə qlobal əmtəə bazarında neftin qiymətinin 3 dəfəyə qədər azalması, 2020-ci ilin əvvəllərindən başlamış və davam etməkdə olan pandemiya böhranı ölkədə makroiqtisadi sabitlik üçün ciddi təhdidlər yaratmışdır. Bütün bunlara baxmayaraq, çevik və effektiv iqtisadi idarəetmə hesabına ölkədə makroiqtisadi sabitlik, həmçinin əhalinin rifahı və sağlamlığı qorunmuşdur. 2021-ci ilin sonuna valyuta ehtiyatlarımız təxminən ÜDM-in həcminə bərabər olmuşdur ki, bu da milli iqtisadiyyatın xarici və daxili təsirlərə qarşı tam dayanıqlığını əks etdirir.

**Həyata keçirilən köklü struktur-institusional islahatlar nəticəsində milli iqtisadiyyatın strukturu dəyişmiş, qeyri-neft sektorunun payı xeyli yüksəlmişdir.** 2012–2021-ci illərdə qeyri-neft/qaz ÜDM-i hər il orta hesabla 3,5% artaraq, 2011-ci ildəki 25,4 mlrd manatdan 2021-ci ilə 57,8 mlrd manata, qeyri-neft/qaz sektorunun payı 2011-ci ildəki 48,8%-dən 2021-ci ildə 62,2%-ə çatmışdır. Bu dövrdə iqtisadi artımın sahəvi hərəkətverici qüvvəsi olan qeyri-neft/qaz sənayesi 2,3 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, informasiya və rabitə sahəsi isə 2,4 dəfə böyümüşdür. Ölkəyə gələn turistlərin sayı 2011-ci ildəki 1,6 mln nəfərdən artaraq 2019-cu ildə 2,9 mln nəfərə çatmışdır.

**Aparılan məqsədyönlü siyasət nəticəsində qeyri-neft sektorunda özəl sektorun payı əhəmiyyətli böyümüşdür.** Həyata keçirilən uğurlu struktur-institusional islahatlar nəticəsində ÜDM-də özəl sektorun xüsusi çəkisi 2019-cu ildə 85% olmuş, pandemiya səbəbindən 2020-ci ildə bu göstərici 80,8%-ə ensə də, artıq 2021-ci ildə 83%-i ötmüşdür. Özəl sektorda inkişafın əsas aparıcı qüvvəsi qeyri-neft/qaz özəl investisiyaları olmuşdur. 2021-ci ildə qeyri-neft/qaz özəl investisiyaların cəmi qeyri-neft/qaz investisiyalarda payı 44,6%-ə çatmışdır.

**İqtisadiyyatda kiçik və orta biznesin dominantlığı xeyli yüksəlmişdir.** Xüsusilə dövlət investisiyaları hesabına yaradılmış müasir iqtisadi infrastruktur kiçik və orta sahibkarlığın inkişafını dəstəkləmişdir. Bu dövrdə qeydiyyatda olan KOB subyektlərinin sayı 3,1 dəfə artmış, qeyri-neft/qaz ÜDM-də payı isə 23,7% təşkil etmişdir. Qeyri-neft/qaz ixracın 25,5%-i KOB tərəfindən həyata keçirilir. KOB-un fəaliyyətinin dəstəklənməsi üzrə kredit portfeli 2018-ci ildən 1,5 dəfə artaraq 2021-ci ildə 4,4 mlrd manata çatmışdır.

**Ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün yerli istehsal potensialı və infrastruktur təminatı inkişaf etdirilmişdir.** Ölkənin mövcud torpaq, su və iqlim resursları əsasında ilkin kənd təsərrüfatı məhsullarının yerli istehsalı hesabına özünütəminetmə göstəricisi ümumilikdə məqbul səviyyədədir. Yerli istehsal potensialı ilə yanaşı, ölkədə *qida məhsulları* ehtiyatlarının saxlanması üçün anbar infrastrukturunun və emal sənayesinin inkişafı üçün yaradılan baza da ölkəmizin ərzaq təhlükəsizliyi baxımından müstəsna əhəmiyyət kəsb edir. Belə ki, təbii resursların çatışmazlığına görə idxaldan asılılığımızın nisbətən yüksək olduğu məhsullar üzrə yerli emal sənayesinin və infrastrukturun yaradılması ölkənin ərzaq təhlükəsizliyini stabil şəkildə təmin etməyə imkan verir.[1]

**Qeyri-neft/qaz sahələrinin, xüsusilə özəl təşəbbüslərin sürətli inkişafında xarici investisiyalar mühüm rol oynamışdır.** 2011–2021-ci illərdə ölkənin qeyri-neft/qaz iqtisadiyyatına bütövlükdə 11,1 mlrd ABŞ dolları həcmində birbaşa xarici investisiya yatırılmışdır. Xarici investisiyalar yüksək məhsuldar sahələrdə rəqabətli dəyər zəncirinin inkişafına və müasir infrastrukturun yaradılmasına yönəldilmişdir. Xarici investorların fəal cəlbini əlverişli biznes mühiti və makroiqtisadi sabitlik şərtləndirmişdir.

**Dövlət büdcəsi həm sosial rifahın dəstəklənməsində, həm də iqtisadi fəallıq üçün investisiyaların təmin olunmasında aktiv olmuşdur.** Qlobal və daxili iqtisadi mühitdə baş verən dəyişikliklər dövlət büdcəsinin gəlirlərinə təsir etsə də, 2011–2021-ci illərdə dövlət büdcəsinin xərcləri nominal ifadədə 1,8 dəfə artmışdır.

**Dövlət borcunun daxili və xarici seqmentləri makroiqtisadi sabitlik və büdcə dayanıqlığı hədəflərini dəstəkləmişdir.** 2021-ci ilin 31 dekabr tarixinə məcmu dövlət borcu ÜDM-in 18,2%-ni təşkil edir ki, bu da fiskal dayanıqlıq baxımından məqbul səviyyədir. Daxili borclanmanın son illər genişlənərək 2021-ci ilin 31 dekabr tarixinə 2.507,1 mln manata çatdırılması maliyyə bazarlarının inkişafı və effektiv fəaliyyəti baxımından əhəmiyyətlidir.

**Son 10 ildə ölkədə inflyasiya iqtisadi fəallıq üçün məqbul olan səviyyədə qorunmuşdur.** Bu dövrdə illik inflyasiya orta hesabla 5,3% səviyyəsində olmuşdur. Monetar şərait makroiqtisadi sabitlik hədəfləri çərçivəsində tənzimlənmişdir. İqtisadi artımın bərpasına dəstək məqsədilə uçot dərəcəsi 2018-ci ilin əvvəlindən 2020-ci ilin dekabr ayınadək 16 mərhələdə azaldılaraq 15%-dən 6,25%-ə endirilmişdir. Lakin 2021-ci ilin birinci yarısında xarici mühitdə baş verən proseslərə cavab olaraq uçot dərəcəsinin dəyişdirilməsi istiqamətində fasilə verilmiş, ilin ikinci yarısından başlayaraq isə inflyasiya proseslərinin sürətlənməsi nəzərə alınaraq uçot dərəcəsi tədricən yüksəldilmişdir. Makroiqtisadi sabitliyin qorunması şəraitində iqtisadiyyatda likvidlik effektiv idarə olunmuşdur.

**Maliyyə sektorunun bütün seqmentlərinin sabitliyi və likvid olması iqtisadi artımın maliyyələşməsinə əhəmiyyətli dəstək vermişdir.** Maliyyə sektorunun mühüm hissəsini təşkil edən bank sektorunda kapitallaşma və likvidlik səviyyəsi normaları 2 dəfəyədək üstələyir. Bu şəraitdə son 10 ildə bank aktivlərinin ÜDM-də payı 26,8%-dən 44,3%-ə yüksəlmiş, iqtisadiyyata kredit qoyuluşlarının həcmi 9,9 mlrd manatdan artaraq 17,1 mlrd manata çatmışdır. Maliyyə sektorunun sağlamlaşdırılması üzrə həyata keçirilmiş tədbirlər sektora etimadı yüksəltmişdir. Depozitlərin həcmi (maliyyə sektoru çıxılmaqla) 3,9 dəfə artaraq 2011-ci ildəki 6,9 mlrd manatdan 2021-ci ildə 27,1 mlrd manata çatmışdır.

**İqtisadi artım bütün vətəndaşların sosial rifahını yaxşılaşdırmışdır.** Bu dövrdə ölkədə minimum əməkhaqqı 2,7 dəfə, orta aylıq əməkhaqqı 2,0 dəfə, pensiyaların minimum məbləği isə 2,3 dəfə artmışdır. Aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə istifadə olunan ehtiyac meyarının məbləği son 10 ildə 2,3 dəfə artırılaraq 2011-ci ildəki 75 manatdan 2021-ci ildə 170 manata çatdırılmışdır.

**Son 10 il ərzində ölkədə əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl genişmiqyaslı dövlət proqramları həyata keçirilmişdir.** Bu dövrdə məşğul əhalinin sayı 14,0%, muzdla işləyənlərin sayı 22,9% artmış, işsizlik səviyyəsi isə pandemiya ilə əlaqədar dalğalanmalara məruz qalmasına baxmayaraq, 2021-ci ildə ölkə üzrə 6,0% təşkil etmişdir.

**Ölkədə yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı dövlət sosial yardımı genişləndirilmiş, aztəminatlı ailələrin təminatı daha da gücləndirilmişdir.** Son 10 ildə aztəminatlı ailələrə verilən sosial yardımın orta aylıq məbləği 2,6 dəfə artırılaraq 2021-ci ildə 280 manata çatdırılmışdır. Həyata keçirilən tədbirlər nəticəsində, milli yoxsulluq həddindən aşağı səviyyədə yaşayan əhalinin xüsusi çəkisi 2019-cu ildə 2010-cu illə müqayisədə 9,1%-dən 4,8%-dək azalmışdır. 2020-ci ildə isə COVID-19 pandemiyası ilə əlaqədar qeyd olunan göstərici 6,2%-dək artsa da, 2021-ci ildə 5,9%-ə enmişdir.

**Keyfiyyətli insan kapitalının hazırlanması prosesinin mühüm mərhələsi olan məktəbəqədər təhsildə göstəricilər yaxşılaşmışdır.** Şəhər və kəndlər üzrə məktəbəqədər təhsilin əhatəlilik göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşmış, məktəbəqədər təhsil müəssisələrində tərbiyə alan və ümumtəhsil məktəblərində məktəbəhazırlığa cəlb olunmuş uşaqların 1–5 yaşlı uşaqların ümumi sayında xüsusi çəkisi son 5 ildə 16% bəndi artaraq 32%-ə çatmışdır.

**Təhsilin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə müəllim-pedaqoq heyətinin inkişafı və motivasiyası diqqətdə saxlanılmışdır.** Müəllimlər arasında aparılan müsabiqələr və müəllimlərin təkmilləşdirilməsi üçün həyata keçirilən tədbirlər, habelə müəllimlərin son 10 ildə əməkhaqlarının 2,4 dəfə artırılması ümumi təhsil məktəblərində təhsil keyfiyyətinə müsbət təsir göstərmişdir.

**Ölkədə təhsilə çıxışın yaxşılaşdırılması məqsədilə müasir texnologiyaya əsaslanan təhsil infrastrukturu yaradılmışdır.** 2003–2021-ci illərdə 3400-dən çox məktəb binası tikilmiş və ya əsaslı təmir edilmişdir ki, bu da bütün məktəblərin 76%-ni təşkil edir.

**Elmi tədqiqat potensialı müasirləşdirilmiş, tətbiqyönlü tədqiqatların aparılması genişləndirilmiş, müasir texnologiyaların tətbiqi imkanları yaranmış və bu prosesdə əqli mülkiyyətin rolu artırılmışdır.** Elmin müxtəlif sahələri üzrə tədqiqatlara dair nəşrlərin sayı sürətlə artmışdır. Son 5 ildə akademik nəşrlərin sayı 80% artmış və Cənubi Qafqaz ölkələri arasında Azərbaycan bu göstərici üzrə 2018-ci ildən etibarən hər il mütəmadi olaraq birinci yerdə qərarlaşmışdır. Son 4 ildə əqli mülkiyyət sahəsində institusional islahat nəticəsində Qlobal Rəqabətlilik İndeksində ölkəmiz "Əqli mülkiyyətin qorunması" göstəricisi üzrə 140 ölkələr sırasında 71-ci yerdən 30-cu yerə irəliləmiş, yaradıcı iqtisadiyyatın ÜDM-dəki payı 3,5%-dən 5,3%-ə yüksəlmişdir.

**Keyfiyyətli səhiyyə xidmətlərinə əlçatanlıq davamlı yaxşılaşmışdır.** Nəticədə, ölkədə ana və uşaq ölümü göstəriciləri azalmış, doğulanda gözlənilən ömür uzunluğu və gözlənilən sağlam ömür uzunluğu isə artmışdır. COVİD-19 pandemiyasına qədər ana ölümü hər 100000 nəfər diri doğulana 14,9, körpə ölümü hər 1000 nəfər diri doğulana 11, beş yaşa qədər uşaq ölümü 13, gözlənilən ömür uzunluğu 73,2 yaş təşkil etmişdir.

**Ölkədə təmiz ekoloji mühit dəstəklənmiş, mövcud təbii resurslardan dayanıqlı və səmərəli istifadə ilə yanaşı, bərpa olunan enerji mənbələrinin dövriyyəyə cəlbi imkanları genişlənmişdir.** Müasir su ehtiyatları infrastrukturu yaradılmış, tullantıların səmərəli idarə edilməsi imkanları genişləndirilmiş, bərpa olunan enerji mənbələri üzrə yeni qoyuluş gücləri yaradılmışdır.

**Son illərdə dünya iqtisadiyyatında baş verən dəyişikliklər fonunda koronavirus pandemiyasının təhdidləri uğurla aradan qaldırılmışdır.** Qlobal rəqabətin əsas faktoru kimi keyfiyyətli insan kapitalı, texnoloji modernizasiya və dayanıqlı iqtisadi artım öz mühümlüyünü saxlayır. Lakin yeni sənayeləşmədə texnoloji dəyişikliyə uyğunlaşmaq üçün bütün ölkələr yeni strateji həllərin tətbiqinə başlamışlar. Bu dəyişikliklərin təsirlərini minimallaşdırmaq üçün ölkədə yüksək sosial-iqtisadi rifah və potensial formalaşdırılmışdır.

### 1.2. Qarşıdakı onillik müddətdə qlobal meyillər, çağırışlar və imkanlar

**Ölkə iqtisadiyyatının uzunmüddətli dövrdə qlobal və daxili mühitdən irəli gələn yeni çağırışlarla üzləşməsi labüddür.** Milli iqtisadiyyatımızın kiçik olması və qlobal iqtisadiyyata yüksək inteqrasiyası xarici mühitdən irəli gələn qalıcı çağırışlara həssaslığını şərtləndirir və milli iqtisadiyyatın strukturunun dəyişməsini zəruri edir. Bu çağırışlar çoxistiqamətlidir.

**Ölkəmizin yüksəkgəlirli dövlətlər qrupuna daxil olması üçün uzunmüddətli dövrdə iqtisadiyyat sürətli və davamlı artmalıdır.** Dünyada 13 ölkənin iqtisadiyyatı 25 il ərzində hər il orta hesabla 7%-i üstələyən artım nümayiş etdirmişdir. Bu iqtisadiyyatlar sürətli, dayanıqlı və

inklüziv şəkildə artaraq, yüksəkgəlirli ölkələrlə məsafənin azalmasına nail olmuşlar. Milli iqtisadiyyatımız yüksəkgəlirli ölkələr sırasına daxil olmağı hədəfləyir. Bunun üçün dayanıqlıq və inklüzivlik keyfiyyətlərini özündə cəmləyən yeni iqtisadi artım olmalıdır. Yalnız belə bir iqtisadi artım hər bir Azərbaycan Respublikası vətəndaşının gəlirlərinin davamlı artması üçün zəmin yarada bilər.

**Dünya ölkələrinin iqtisadiyyatlarında sürətli rəqəmsallaşma meyilləri və bu əsasda məhsuldarlığın əhəmiyyətli artımı keyfiyyətli inkişaf üçün fürsətlər yaradır.** Dünyada davamlı texnoloji inkişaf qlobal dəyər zəncirini sürətlə genişləndirir və onun coğrafiyasını böyüdür. Bu, qlobal əmtəə və xidmətlərin son istehlakçıya vaxtında, keyfiyyətli və aşağı qiymətə çatdırılmasına imkan verir. Rəqəmsal cəmiyyətin istehlakçıları sifariş etdikləri məhsulları bütün dəyər zənciri üzrə izləmə imkanına malikdirlər. Bu meyillərdən faydalanma ölkə iqtisadiyyatının qısa müddətdə qlobal dəyər zəncirinə inteqrasiyasına dəstək olacaqdır.

**Qlobal iqtisadiyyatda "yaşıllaşma və karbonsuzlaşma" meyilləri qeyri-resurs iqtisadiyyatların inkişafı üçün imkanlar yaradır.** Qeyd olunan meyillərin sürətlənməsi uzunmüddətli dövrdə ölkənin neft gəlirlərinə təsir edə bilər. Qlobal enerji bazarında neftə tələbin düşməsi qeyri-neft/qaz sektorunun dərin şaxələnməsini və qeyri-neft/qaz valyuta gəlirləri hesabına azalan neft gəlirlərinin kompensasiyasını tələb edir. İqlim dəyişikliyi ilə mübarizə, təbii resursların səmərəli istifadəsi və biomüxtəlifliyin qorunması dayanıqlı iqtisadiyyatın əsas prinsiplərindən biridir. Dayanıqlı İnkişaf Məqsədləri, İqlim dəyişmələri üzrə Paris Sazişi üzrə çağırışların və ölkənin inkişaf prioritetlərinin reallaşdırılması bərpa olunan enerji mənbələrindən istifadənin artırılmasını və ekoloji təmiz, enerji səmərəli texnologiyalardan istifadəni tələb edir.

**İqtisadi artımın inklüziv və dayanıqlı olması üçün kənd və şəhərlər arasında inkişaf balansı gözlənilir.** Kəndlərdə də, şəhərlərdəki kimi, müasir sosial-iqtisadi infrastrukturun vacib elementləri olan təhsil ocaqları, tibb müəssisələri, mədəniyyət evləri, mühüm kommunal və inkişaf xidmətləri rəqəmsal texnologiyalar əsasında yaradılır. Bütün bunlar şəhər və kənd yerləri arasında həyat standartlarında fərqi əhəmiyyətli dərəcədə azaldır. Kəndlərin planlanması və əhalinin məskunlaşması zamanı regionun iqtisadi dəyər zəncirində mövcud və potensial rolu nəzərə alınır.

**Qloballaşma proseslərinin sürətlənməsi və maliyyə böhranlarının başver-mə tezliyinin artması makroiqtisadi və maliyyə sabitliyinin təmin olunmasına diqqəti artırır.** Makroiqtisadi sabitlik və dayanıqlıq uzunmüddətli dövrdə davamlı iqtisadi artımın başlıca şərtləridir. Aşağı və stabil inflyasiya, dayanıqlı məzənnə, habelə maliyyə sektorunun bütün seqmentlərinin sabitliyi daxili və xarici investisiya fəallığını şərtləndirir.

**Qlobal birbaşa investisiyaların cəlbi üzrə rəqabət kəskinləşir.** Bu investisiyalar sağlam və şəffaf biznes mühitinin mövcudluğunu, makroiqtisadi sabitlik və maliyyə sabitliyi tələb edir. Qeyd olunan şərtlər mövcud olmadığı halda, ölkəyə yüksək texnologiya və bilik gətirən birbaşa xarici investisiyaların axınına maneə yarana bilər. Təcrübə göstərir ki, sürətli inkişafın əsas drayveri olan birbaşa xarici investisiyalar ölkədə dayanıqlı yeni iş yerləri yaratmaqla yanaşı, yüksəkkeyfiyyətli insan kapitalı formalaşdıra bilər.

**COVID-19 pandemiyası dünya ölkələrinin iqtisadiyyatları üçün səhiyyə, ərzaq təhlükəsizliyi və dayanıqlı məşğulluq çağırışlarını aktuallaşdırmaqdadır.** Rəqəmsal texnologiyaların səhiyyə sisteminə tətbiqi nəticəsində çevik və təmassız tibb xidmətləri genişləndirilir və daha çox insan səhiyyə xidmətlərinə ucuz çıxış əldə edir. Yoluxucu xəstəliklərdən qorunma yalnız güclü səhiyyə sistemi və qabaqlayıcı tədbirlər hesabına mümkün deyil. Eyni zamanda insanların sağlam və adekvat qidalanması və bu əsasda tələb olunan immunitetin formalaşması vacibdir. Ölkələr həm ərzaq təchizatında yaranmış problemləri həll etmək, həm də ərzaq qiymətlərində yüksək qiymət dəyişkənliyindən sığortalanmaq üçün uzunmüddətli dövrə strateji ərzaq ehtiyatları yaradırlar. İqtisadiyyatda baş verən dəyişikliklər

əmək bazarına da təsirsiz ötüşmür və xüsusilə də yeni ixtisasların yaranması, bir sıra ixtisaslara tələbin azalması əhalinin məşğulluğu sahəsində adekvat tədbirlər görülməsini şərtləndirir.

**Rəqəmsal texnologiyaların tətbiqi və aşağıtəmaslı iqtisadi sahələrin inkişafı perspektivləri yüksək bilik və bacarıqları olan insan resurslarına tələbi artırır.** Bu ehtiyacların təmin olunması istiqamətində iki strateji xətt mövcuddur. Birinci strateji xətt müasir iqtisadiyyatın ehtiyaclarına cavab verən təhsilin yeni məzmununun formalaşmasıdır. İkinci strateji xətt isə mövcud insan resurslarının yenidən kvalifikasiyası üçün ömürboyu təhsil imkanlarının yaradılmasıdır. Hər iki strateji xəttin paralel həyata keçirilməsi iqtisadi şaxələnmə və sürətli rəqəmsallaşma üçün faydalıdır.

**Aparıcı iqtisadi sahələrdə əqli fəaliyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa dəstək genişlənir.** Əqli mülkiyyətə əsaslanan və texnologiya, dizayn və brendlər formasında olan qeyri-maddi kapitalın dəyər zəncirində davamlı artmasında əqli fəaliyyət nəticələrinin, innovasiya və yaradıcılığın təşviqi vacib amil rolunu oynayır. Bu səbəbdən əqli mülkiyyətin üstünlük təşkil etdiyi yaradıcı iqtisadiyyatın inkişafı dəstəklənməli, yaradıcı və müasir rəqəmsal texnologiya biliciləri arasında əməkdaşlıq yaranmalı, peşə hazırlığının keyfiyyəti artırılmalıdır.

**Dünya ölkələrinin iqtisadiyyatlarında rifahın dəstəklənməsində əsas uğur yüksəkgəlirli əhali qrupu ilə yoxsul əhali qrupu arasında balansın təmin olunmasıdır.** Gəlirlərin əldə olunmasında və bölgüsündə "yüksək məhsuldarlığa çıxış əsasında gəlir qazanmaq" prinsipinə deyil, "hamı üçün məhsuldarlığın artırılması — iş və ya sahibkarlıq fəaliyyəti imkanlarına bərabər çıxış yaradılması" prinsipinə üstünlük verilməlidir. Bu balans daim dövlətin sosial-iqtisadi inkişaf və tənzimləmə funksiyası ilə reallaşdırılmalıdır.

**Dayanıqlı məşğulluq vətəndaşın rifahının davamlı təmin olunmasına və dövlətin sosial yükünün optimallaşdırılmasına xidmət edir.** Rəqabətli dəyər zəncirlərinin yaranması və əhalinin təhsil səviyyəsinin artırılması dünya iqtisadiyyatında dayanıqlı iş yerlərinin yaranmasını dəstəkləyir. Xarici investisiyaların cəlbi və rəqəmsal texnologiyaların tətbiqi ilə daxili istehsal və xidmətlər qlobal dəyər zəncirinə inteqrasiya olunacaqdır. Bu isə rəqabətli və dayanıqlı məşğulluq imkanlarının yaranmasına və bu yolla vətəndaşın rifahının yaxşılaşmasına xidmət edəcəkdir.

**Azərbaycanın böyük uğur salnaməsi olan işğaldan azad edilmiş torpaqların sosial-iqtisadi sistemə effektiv reinteqrasiyası təmin edilir.** Bu strateji məqsədin həyata keçirilməsi üçün işğaldan azad olunmuş ərazilərdə mərhələli şəkildə, prioritetləşdirilməklə, səmərəlilik şərtləri nəzərə alınmaqla və müasir təcrübəyə əsaslanmaqla bərpa-quruculuq işlərinin həyata keçirilməsi, rəqəmsal texnologiyaların geniş tətbiqi ilə müasir sosial və biznes infrastrukturunun yaradılması, bu əsasda Azərbaycan vətəndaşının dayanıqlı məskunlaşmasının təmin edilməsi tələb olunur. Sözügedən işlər müasir təcrübə və yanaşmalar əsasında beynəlxalq əməkdaşlıq çərçivəsində reallaşdırılmaqdadır. İşğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi potensialından xalqımızın rifahı naminə tam istifadə olunması, xüsusilə Zəngəzur dəhlizi üzərindən reallaşdırılacaq regional nəqliyyat-kommunikasiya layihələri davamlı və dayanıqlı inkişaf üçün geniş imkanlar yaradır. İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq üzrə qət olunan məsafə qarşıya qoyulmuş məqsədlərin yüksək səviyyədə həyata keçiriləcəyindən xəbər verir. Məhz uzunmüddətli dövrə hədəflənən strateji baxışın, zəruri resursların və texnoloji həllərin mövcud olması bunun təminatı kimi çıxış edir.

## 2. AZƏRBAYCAN–2030: QÜDRƏTLİ DÖVLƏT VƏ YÜKSƏK RİFAH CƏMİYYƏTİ

### 2.1. Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişaf modeli

Ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf modelinin başlıca nəticələri Azərbaycanın ərazi bütövlüyünün bərpası, beynəlxalq nüfuzunun artırılması, ölkənin iqtisadi potensialının gücləndirilməsi və əhalinin sosial rifah vəziyyətinin əhəmiyyətli yüksəldilməsi olmuşdur. Bu model ölkədə ictimai-siyasi sabitliyi daha da gücləndirməklə dayanıqlı iqtisadi artım, yüksələn sosial rifah və davamlı sabitlik üçün zəmin yaratmışdır. İqtisadiyyatda neft gəlirlərindən sosial-iqtisadi məqsədlərə effektiv istifadə etməklə gələcək inkişaf üçün şaxələnmə və ixrac potensialı yaradılmışdır. Bütün bu nəticələrin əldə olunmasında dövlətin səmərəli idarəetməsi həlledici rol oynamışdır.

Növbəti strateji dövrdə "Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti"nə çevrilmək üçün mövcud sosial-iqtisadi modelin məzmunu və strukturu əhəmiyyətli dərəcədə yenilənəcəkdir. Bu əsasda qəbul edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" müasir inkişaf ideologiyasına əsaslanan yeni sosial-iqtisadi artım modelinin bazasında həyata keçiriləcəkdir. Bu model ölkənin bütün resurslarını və nailiyyətlərini səfərbər etməklə, onları uzunmüddətli dövrdə qarşıya qoyulan strateji vəzifələrin reallaşmasına yönəldəcəkdir.

Yeni sosial-iqtisadi inkişaf modeli 2030-cu ilədək olan dövrdə ölkədə bütün sahələrdə həyata keçirilməsi nəzərdə tutulan köklü islahatların ideologiyasını təmin edir. İdeologiyanın nüvəsində yaradıcı sahibkar, məhsuldar investisiyalar, innovasiyaları dəstəkləyən əqli mülkiyyətin inkişafı və rəqabətli bazarlar durur.

Bu sosial-iqtisadi inkişaf modelinin **iki mərhələdə** həyata keçirilməsi nəzərdə tutulur. **Birinci mərhələdə** (2022–2026-cı illər) sosial-iqtisadi inkişaf modelinin 2030-cu ilədək uğurla reallaşdırılması üçün təməl şərtlər işə salınacaqdır. 2027–2030-cu illəri əhatə edəcək **ikinci mərhələdə** isə bu təməl şərtlərin komplementarlığı şəraitində milli iqtisadiyyatın keyfiyyətcə yeni simasının yaradılmasına nail olunacaqdır.

## 2.2. 2022—2026-cı illərdə sosial-iqtisadi inkişafa baxış

**2022—2026-cı illərdə yeni sosial-iqtisadi inkişaf modeli Azərbaycanda çoxsahəli inkişafın yeni keyfiyyət səviyyəsini müəyyən edəcəkdir.** Bu mərhələdə başlıca məqsəd yüksək, dayanıqlı, inklüziv iqtisadi artım templərini bərpa etməklə, hər bir Azərbaycan Respublikası vətəndaşının sabit təminatlı həyat səviyyəsinə nail olmaqdır. Bu zaman başlıca vektor artımın səviyyəsindən çox, onun keyfiyyətinə əsaslanacaqdır.

**Strateji dövrdə yeni artım modeli özəl təşəbbüslərə, keyfiyyətli və sağlam insan kapitalına söykənəcəkdir.** Dayanıqlı, inklüziv inkişafı təmin edən özəl təşəbbüslər və rəqabətqabiliyyətli açıq iqtisadiyyat modeli müasirləşmə strategiyasının əsas qüvvəsi olacaqdır.

**Rəqabətlilik ölkədə adambaşına düşən milli gəlirin uzunmüddətli dövrdə stabil artmasına və insanların həyat standartının yüksəldilməsinə imkan yaradacaqdır.** İqtisadiyyatın rəqabətliliyi əsas təməl olan məhsuldarlığın dərinləşməsi hesabına artırılacaqdır. Bu strateji dövrdə özəl və məhsuldar investisiyalar, keyfiyyətli institutlar, müasir bilik və bacarıqları olan insan kapitalı, sağlam cəmiyyət, innovasiya və yeni texnologiyalar, həmçinin makroiqtisadi sabitlik yüksək məhsuldarlığı təmin edəcəkdir.

**İnkişafın əsas qüvvəsi sahibkar olduğundan, dövlət bütün qüvvəsini və resurslarını rəqabətli və dayanıqlı iqtisadi fəaliyyət mühitinin dəstəklənməsinə yönəldəcəkdir.** Bu model hamı üçün bərabər imkanlar və fürsətlər yaradacaqdır. Yalnız bacarıqlar bütün sahələrdə uğurun fundamental şərti olacaqdır.

**Yeni inkişaf modeli çərçivəsində, işğaldan azad olunmuş ərazilər də əhatə edilməklə vahid iqtisadiyyat–müasir dəyər zənciri qurulacaqdır.** Milli iqtisadiyyat dərindən şaxələnməklə qlobal dəyər zəncirinin ayrılmaz hissəsinə çevriləcəkdir.

**Biznesin, ev təsərrüfatlarının və fərdlərin bütün bazarlarda effektiv fəaliyyəti üçün zəruri şərtlər təmin olunacaq,** iqtisadiyyata cəlb edilən investisiyalar, mülkiyyətçilərin

mülkiyyət toxunulmazlığı, iqtisadi maraqları, ölkənin tarixi milli dəyərləri qorunacaq və sosial-iqtisadi sahələr sürətlə müasirləşəcəkdir.

**Modelin aparıcı qüvvəsi olan Azərbaycan Respublikası vətəndaşının bilik, bacarıq və səriştələrinin artması onun gəlir qazanmaq imkanlarını genişləndirəcək və sağlam həyat tərzini təmin edəcəkdir.** Bilikli cəmiyyət müasir texnologiya və innovasiyaların həm yaradıcısına, həm də istifadəçisinə çevriləcəkdir.

**Ölkədə təbii resurslardan dayanıqlı istifadə etməklə, ekoloji mühiti qorumaqla iqtisadiyyatın effektivliyinə nail olunacaqdır.** Yüksək inkişaf səviyyəsi eyni zamanda yüksək maddi və mənəvi rifahı təmin edəcək, dayanıqlı artan milli gəlirdən insanlar daha geniş şəkildə faydalanacaqlar.

**Yeni sosial-iqtisadi inkişaf modelinin reallaşdırılması üçün ölkədə zəruri iqtisadi resurslar və müasir infrastruktur bazası mövcuddur.** Strateji dövrdə sosial-iqtisadi inkişaf modeli əvvəlki dövrlərdə əldə edilmiş nailiyyətlərə əsaslanmaqla reallaşdırılacaq. Beynəlxalq nüfuza malik güclü lider, çətin dövrlərdə yüksək dövlət və vətəndaş həmrəyliyi, yeniliyə açıq və biliyi hər şeydən üstün tutan cəmiyyət, eləcə də uzun illər ərzində formalaşmış yüksək iqtisadi potensial yeni milli sosial-iqtisadi inkişaf modelinin uğurla həyata keçirilməsinin təminatıdır.

Əlverişli demoqrafik vəziyyətin mövcudluğu, iqtisadi fəal gənc əhalinin işçi qüvvəsinin ümumi strukturunda yüksək paya malik olması və gənclər tərəfindən yeni innovativ metodların dərindən mənimsənilməklə tətbiqi daha effektiv nəticələrin əldə olunması üçün fürsətlər yaradır.

## 3. "2022—2026-CI İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAF STRATEGİYASI"NIN TƏSVİRİ

### 3.1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə

**Ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft ixracının artırılması hesabına davamlı və yüksək iqtisadi artım təmin olunacaqdır.** Keyfiyyətli məhsul və xidmətlər ixracı hesabına ölkə iqtisadiyyatı qlobal dəyər zəncirinə inteqrasiya ediləcəkdir. Bu məqsədlə daha sağlam və rəqabətli biznes mühiti yaradılacaq, sahibkarlığın inkişafına dövlət geniş dəstək verəcəkdir. Dövlətə məxsus olan hüquqi şəxslərin effektivliyi artırılacaq, onların hesabatlılığı gücləndiriləcəkdir. Nəticədə ölkə iqtisadiyyatı hər il orta hesabla 3–4%, qeyri-neft/qaz ÜDM-i isə illik orta hesabla 5% artacaq. Özəl sektorun iqtisadiyyatda payı 88%-ə çatdırılacaqdır.

**Sağlam və rəqabətli biznes mühiti üçün qanunun aliliyi təmin olunacaq və effektiv məhkəmə islahatları həyata keçiriləcəkdir.** Bu islahatlar sahibkarlıq fəaliyyəti ilə məşğul olanların mülkiyyətinin və maraqlarının effektiv müdafiəsinə imkan verəcəkdir. Sahibkarlıq fəaliyyəti üzərində izafi tənzimləmə optimallaşdırılacaq. Təbii inhisar subyektlərinin rəqabətə mənfi təsirlərinin qarşısı alınacaq və bütün bazarlarda rəqabət gücləndiriləcək. Dövlət satınalmalarında şəffaflıq və səmərəlilik artırılacaqdır. İnvestisiyalar üçün əlverişli vergi şərtləri tətbiq ediləcək və digər fiskal stimullar veriləcəkdir. Bu islahatların həyata keçirilməsi sayəsində biznes mühiti daha da sağlamlaşdırılacaq, milli iqtisadiyyata etimad artacaq və nəticədə böyük həcmdə daxili və xarici investisiyalar cəlb ediləcəkdir.

**Sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin effektivliyi, ünvanlılığı və şəffaflığı gücləndiriləcəkdir.** Uğurlu ölkələrin təcrübələri əsasında biznes startaplarının və inkubatorlarının, ixracyönümlü istehsal və xidmətlər üzrə biznes layihələrinin dəstəklənməsi mexanizmləri təkmilləşdiriləcək. Nəticədə, sahibkarlıq fəaliyyətinə başlamaq və mövcud fəaliyyətini genişləndirmək istəyənlər, xüsusilə kiçik və orta bizneslər üçün yeni maliyyələşmə

mexanizmləri yaradılacaqdır. Bu əsasda sahibkarlara dəstək üzrə sərf olunan maliyyə vəsaitinin 20–30%-nin mikro, 35–45%-nin kiçik və 25–35%-nin orta sahibkarlara yönəldilməsi hədəflənir.

**Dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin iqtisadi səmərəliliyi yüksəldiləcək, idarə edilməsi yaxşılaşdırılacaq və şəffaflığı artırılacaqdır.** Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş dövlətə məxsus olan hüquqi şəxslərin effektivliyi, maliyyə dayanıqlığı və rəqabət qabiliyyəti artırılacaqdır. İqtisadiyyatda dövlətin bilavasitə iştirakı optimallaşdırılacaq, strateji sahələr istisna olmaqla, dövlət mülkiyyətində olan aktivlərin mərhələli şəkildə özəlləşdirilməsi istiqamətində tədbirlər həyata keçiriləcək ki, bu da dövlət resurslarına olan tələbatı və riskləri azaldacaqdır. Həmçinin özəlləşdirilməsi müəyyən müddət məqsədəuyğun hesab olunmayan təsərrüfat subyektlərinin kommersiyalaşdırılması və ya idarəetməyə verilməsi yolu ilə səmərəlilik göstəricilərinin daha da yaxşılaşmasına nail olunacaq.

**Qeyri-neft/qaz sektoruna birbaşa xarici investisiya (BXİ) cəlbi təşviq ediləcək, dövlət mülkiyyətində olan aktivlərin özəl sektora transformasiyası baş verəcək.** Strateji sahələr istisna olmaqla, dövlətə məxsus olan hüquqi şəxslərin özəlləşdirilməsi və dövlət–özəl tərəfdaşlıq mexanizmləri ilə iqtisadiyyatın maliyyələşdirilməsi həyata keçiriləcəkdir. Dövlət investisiyalarının effektivliyi artırılacaq, onun özəl investisiyaları stimullaşdırma potensialı yüksəldiləcək. BXİ-ləri prioritet iqtisadi sahələrə yönəltmək üçün yeni mexanizmlər formalaşdırılacaq, investorlarla birbaşa dialoq mexanizmləri tətbiq olunacaqdır. Beynəlxalq inkişaf institutlarının, xüsusilə özəl sektorun inkişafının maliyyələşməsi üzrə ixtisaslaşan institutların maliyyələşmə potensialından optimal istifadə təmin ediləcək və nəticədə, qeyri-neft/qaz sektoru üzrə BXİ-lərin həcmi illik 10–15% artacaqdır.

**Rəqəmsal texnologiyaların tətbiqi imkanlarının genişləndirilməsi üçün normativ hüquqi baza yaradılacaq və bu sahə dövlət tərəfindən tənzimlənəcəkdir.** Rəqəmsal texnologiyaların inkişafı məqsədilə xüsusi fondlar və inkişaf institutları fəaliyyət göstərəcək, bu əsasda internet, yüksəksürətli mobil internet (5G texnologiyası daxil olmaqla), xüsusilə genişzolaqlı internet xidmətlərinin əhatəsi 95%-ə çatdırılacaqdır.

**Aqrar sektor, sənaye və xidmət sahələrində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlıq artacaq, həmçinin yeni iş yerləri yaradılacaqdır.** Dövlətin stimullaşdırıcı dəstəyi ilə bu sahələrin qlobal dəyər zəncirinə dayanıqlı inteqrasiyası təmin olunacaqdır. Dövlət aqrar sektor, sənaye və xidmət sahələrinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında aktiv iştirak edəcək, müxtəlif sənaye parkları və məhəllələri, turizm və rekreasiya zonaları yaradılacaq, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracı stimullaşdırılacaq. Nəticədə, 2022–2026-cı illərdə kənd təsərrüfatı hər il orta hesabla 4% artacaqdır. Nəqliyyat sektorunda orta illik artım tempi 5%-i üstələyəcək. Ölkənin tranzit yükdaşımalardan əldə etdiyi gəlir 2019-cu ildəki 227 mln manatdan 2 dəfəyədək artaraq, 450 mln manata çatacaqdır. Qeyri-neft/qaz sənayesi hər il orta hesabla 8,3% artacaq, sənaye zonalarının qeyri-neft/qaz sənaye istehsalında payı 15%, qeyri-neft/qaz sənaye ixracında payı isə 25% olacaqdır. İnformasiya və rabitə sektorunda hər il orta hesabla 10%-dən çox, tikinti sektorunda isə təxminən 3% artım olacaqdır. 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda yaradılacaq əlavə dəyər 2019-cu illə müqayisədə 1,5 dəfə artacaqdır.

**Dayanıqlı iqtisadi artım üçün ölkədə makroiqtisadi sabitlik və dayanıqlıq təmin olunacaq, maliyyə sektorunun bütün seqmentlərinin sabitliyi gücləndiriləcək.** Makroiqtisadi sabitliyin və maliyyə sabitliyinin gücləndirilməsi iqtisadi artımın davamlılığı üçün vacibdir. Ölkənin makroiqtisadi dayanıqlığı – irihəcmli strateji ehtiyatlarının mövcudluğu milli iqtisadiyyatımızın xarici mühitdəki dəyişikliklərə dayanıqlı olmasını gücləndirəcəkdir. Fiskal sabitlik üçün tənzimləmə çərçivəsi təkmilləşdiriləcək və bu təməl şərtlərlə illik inflyasiya 4±2% intervalında qorunacaq, icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft/qaz ÜDM-ə nisbət göstəricisinin yuxarı həddi 2026-cı ilin sonunadək 17,5% təşkil edəcək, bu şəraitdə Dövlət Neft

Fondunun aktivləri dayanıqlı səviyyədə saxlanılacaqdır. Növbəti illərdə tələb olunan maliyyələşmələrin daxili borcalmalar hesabına təmin edilməsi yolu ilə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının *30 faizi, o cümlədən xarici dövlət borcunun 10,0 milyard ABŞ dollarını üstələməməsi* hədəflənir. [2]

**Maliyyə sektorunun bütün seqmentlərinin iqtisadiyyatda rolu artırılacaqdır.** Bank sektorunun iqtisadiyyatın maliyyələşməsində iştirakı yüksəldiləcək, maliyyə inklüzivliyi genişləndiriləcək, maliyyə xidmətlərinin əlçatanlığı, əhali və biznes subyektlərinin maliyyə resurslarına çıxış imkanları artırılacaqdır. Dövlət–özəl sektor əməkdaşlığı çərçivəsində investor və kreditorların risklərinin sığortalanması sistemi təkmilləşdiriləcək, biznes kreditlərinə təminatların verilməsi mexanizminin əhatəliliyi genişlənəcəkdir. Maliyyə xidmətlərinin rəqəmsallaşması fonunda əhali və biznesin investisiyalar və İKT sahəsində savadlılığı artırılacaqdır. Dayanıqlı iqtisadi artımın təmin olunmasında maliyyə sekrorunun rolunun gücləndirilməsi üçün ölkədə uzunmüddətli kollektiv investorlar şəbəkəsinin yaradılması stimullaşdırılacaq, sığorta və korporativ qiymətli kağızlar bazarı dərinləşdiriləcəkdir. Rəqabətli, innovativ və əlçatan ödəniş mühitinin əhatəliliyi, habelə ölkə üzrə nağdsız ödəniş alətlərindən tam istifadə imkanları genişləndiriləcəkdir. Eyni zamanda, sosial ödənişlərdə banklararası rəqabətin gücləndirilməsi, pensiya və müavinətlərin alınması üzrə bank seçimində sərbəstlik təmin ediləcəkdir. Bu əsasda maliyyə dərinliyini ifadə edən göstəricilər davamlı yaxşılaşacaq, iqtisadi subyektlərin milli ödəniş sistemində aparılan əməliyyatlarının həcmi 25% artacaq, o cümlədən ödəniş kartları ilə aparılan əməliyyatlarda nağdsız əməliyyatların payı 55%-ə çatacaqdır.

**İxrac şaxələnəcək və qeyri-neft ixracı genişlənəcəkdir.** İxracı asanlaşdırmaq üçün idarəetmə və institusional mexanizmləri tənzimləmə çərçivəsi təkmilləşdiriləcəkdir. İxracyönümlü yerli məhsulların keyfiyyətli istehsalı təmin olunacaq və e-ixrac inkişaf etdiriləcək, qeyri-neft/qaz ixracının təşviqinə dövlət dəstəyi artırılacaq, 2021-ci illə müqayisədə 2026-cı ildə qeyri-neft/qaz ixracının həcminin 85% artmasına nail olunacaqdır.

### 3.2. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət üzrə strateji çərçivə

**Əməkhaqları artırılacaq və hamı üçün layiqli həyat səviyyəsi təmin ediləcəkdir.** İşləyənlərin layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədilə minimum əməkhaqları artırılacaqdır. Xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbətinin məqbul səviyyəsi qorunacaqdır.

**Özəl sektorda yeni iş yerləri yaradılacaq, məşğulluq səviyyəsi artacaqdır.** Yeni iş yerləri yaradan sahibkarlıq fəaliyyəti stimullaşdırılacaqdır. Xüsusilə regionlarda kiçik və orta sahibkarlığın, eləcə də özünüməşğulluğun inkişafına zəruri şərait yaradılmaqla əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunacaq, qeyri-formal məşğulluğa qarşı zəruri qabaqlayıcı və nəzarət tədbirləri gücləndiriləcək, bunun nəticəsində qeyri-dövlət sektorunda məşğul əhalinin payı 2021-ci ildəki 77,6%-dən artaraq 80%-ə çatdırılacaq. Qeyri-formal məşğulluğun mərhələli azaldılması nəticəsində muzdla işləyənlər üzrə qeyri-dövlət sektorunun payı 50% (2021-ci il üzrə: 46,9%) təşkil edəcəkdir.

**Bütün vətəndaşlar üçün ədalətli və əhatəli sosial müdafiə sistemi qurulacaqdır.** Pensiyaçılar üçün effektiv yığım, aztəminatlı əhali qrupu üçün zəruri ehtiyacların ödənilməsi, əlilliyi olan şəxslər üçün isə sosial yardımların əlçatanlığı artırılacaqdır. Pensiya sisteminin dayanıqlığı gücləndiriləcək, sosial sığortanın tətbiqi genişləndiriləcək. Hamı üçün bərabər iştirak imkanı yaradan sosial təminat və sosial xidmətlər sistemi inkişaf etdiriləcəkdir. Minimum pensiya məbləği minimum əməkhaqqı səviyyəsinin 75–80%-də saxlanılacaqdır.

**Qadınların iqtisadi imkanlara çıxışı yaxşılaşdırılacaqdır.** Qadınların cəmiyyətdə iqtisadi fəallığı artırılacaq, onların yüksək əməkhaqqı olan iqtisadi sahələrdə məşğulluğu təşviq

olunacaqdır. Qadınların uğurlu fəaliyyəti üçün peşə yönümü, karyera məsləhəti və digər aktiv məşğulluq tədbirləri genişləndiriləcəkdir. Qadınların orta aylıq əməkhaqqının kişilərin orta aylıq əməkhaqqına nisbəti 2021-ci ildəki 65,8%-dən 80%-ə çatacaqdır.

**Şəhərlə kənd arasında yaşayış standartlarındakı fərqlər azaldılacaqdır.** Regionların iqtisadi və təbii potensialından səmərəli istifadə ediləcək, özəl investisiyaların cəlbi təşviq olunacaq, yeni çağırışlara uyğun regional inkişaf mexanizmləri dövlət tərəfindən dəstəklənəcəkdir. Nəticədə, ümumi məhsul buraxılışında regionların xüsusi çəkisi 35%-dən 42%-ə çatdırılacaqdır.

### 3.3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı üzrə strateji çərçivə

**Məktəbəqədər təhsilin əhatə dairəsi artırılacaqdır.** Ölkə üzrə məktəbəqədər təhsilin göstəriciləri yaxşılaşdırılacaq, məktəbəqədər təhsilin məzmunu yenilənəcək, pedaqoji heyətin və idarəetmə heyətinin peşəkarlığı artırılacaq, məktəbəqədər təhsilin keyfiyyətinin təminatı sistemi yaradılacaqdır. Nəticədə, məktəbəqədər təhsilə cəlb edilmiş 1–5 yaşlıların payı 50%-ə çatdırılacaqdır.

**Ölkədə ümumi təhsildə səriştəəsaslı məzmun tətbiq olunacaq, təhsil üzrə beynəlxalq qiymətləndirmələrdə mövqe yaxşılaşdırılacaqdır.** Təhsilverənlərin və idarəetmə heyətinin peşəkarlıq səviyyəsi artırılacaqdır. Ümumi təhsildə nəticəyönlü idarəetmə və maliyyələşmə sistemi qurulacaq, təmayüllərin və inklüziv təhsilin əhatə dairəsi genişləndiriləcək, infrastruktur isə müasirləşdiriləcəkdir.

**Peşə təhsilinin əhatə dairəsi və keyfiyyəti artırılacaqdır.** Əmək bazarının tələblərinə cavab verən peşə təhsili tətbiq olunacaq, işəgötürənlər peşə təhsili sisteminə inteqrasiya ediləcəklər. Peşə təhsili sistemində maliyyələşmə və idarəetmə sistemi təkmilləşdiriləcək, təhsilverənlərin və idarəetmə heyətinin peşəkarlıq səviyyəsi artırılacaqdır. Nəticədə, peşə təhsili müəssisələrinə qəbul olan tələbələrin sayı əlavə olaraq 11 min nəfər artırılacaqdır.

**Gəlirindən asılı olmayaraq bütün ailələrin övladları üçün ali təhsilə əlçatanlıq təmin olunacaqdır.** Ali təhsilin məzmununda əmək bazarının tələbləri nəzərə alınacaq, ali təhsilin keyfiyyəti artırılacaq və beynəlxalq rəqabətliliyi təmin olunacaq, rəqabətli maliyyələşmə və idarəetmə mexanizmləri yaradılacaqdır. Nəticədə, ali təhsilə qəbul olan tələbələrin sayı əlavə olaraq 20 min nəfər artacaqdır.

**Elmin müxtəlif sahələri üzrə tədqiqatlar genişləndiriləcəkdir.** Müasir təfəkkürlü və kreativ düşüncəli gənclər erkən vaxtlardan elmi araşdırmalara cəlb ediləcəkdir. Elmi tədqiqatların rəqabətli və məqsədli maliyyələşdirilməsi mexanizmi yaradılacaqdır. Beynəlxalq impakt-faktorlu jurnallarda çap olunan məqalələrin sayı 40% artacaqdır.

**Əhalinin davamlı savadlanması üçün "ömürboyu öyrənmək" mexanizmi yaradılacaqdır.** Bu mexanizm əhalinin əmək bazarının tələblərinə uyğun ixtisasartırma kurslarında iştirak etməsinə və zəruri kvalifikasiyalar əldə etməsinə imkan verəcəkdir. Nəticədə, ixtisasartırma üzrə innovativ proqramların və məzunların sayı hər il əhəmiyyətli sayda artacaqdır.

**Təhsilin bütün səviyyələrində təhsilalanlara rəqəmsal biliklər aşılanacaqdır.** Qlobal informasiya məkanından istifadə üçün maarifləndirmə tədbirləri həyata keçiriləcəkdir. Təhsil müəssisələrində İKT əsaslı infrastruktur inkişaf etdiriləcəkdir. Nəticədə, tədris prosesində və idarəetmədə İKT-nin tətbiqi genişləndiriləcəkdir.

**Elmi tədqiqat, texniki konstruktor işlərinin (ETTKİ) kommersiyalaşdırılmasına dəstək veriləcəkdir.** Bu məqsədlə həyata keçirilən tədqiqatlar maliyyələşdiriləcək, ETTKİ infrastrukturu inkişaf etdiriləcəkdir. Müasir dövrdə texnologiyaların kommersiyalaşdırılması innovativ inkişafda prioritet olduğundan, tədqiqat nəticələrinin məhsula çevrilməsi təmin olunacaq və elmi tədqiqatlarda mövcud maneələr müəyyən edilərək aradan qaldırılacaqdır.

Nəticədə, innovasiyaların bazara çatdırılması asanlaşdırılacaq, ETTKİ üzrə xərclərin ÜDM-dəki payı isə 0,1% səviyyəsinə çatdırılacaqdır.

**İdxalın əvəz olunması və istehsalın lokallaşdırılması məqsədilə yerli istehsal potensialı gücləndiriləcəkdir.** İnnovasiyaların özəl və dövlət sektorlarında tətbiqi stimullaşdırılacaq, özəl sektor tərəfindən İKT infrastruktur layihələrinə investisiya qoyuluşları təşviq ediləcəkdir. Nəticədə, transmilli şirkətlərin ölkə ərazisində aparılan tədqiqatlara ayırdıqları xərcləri artacaqdır.

**İnnovativ və rəqəmsal bacarıqlar üzrə təhsilin keyfiyyəti və əlçatanlılığı artırılacaqdır.** Rəqəmsal akademiya yaratmaqla peşəkar rəhbər kadrların hazırlanması və yenidənhazırlanması təmin ediləcəkdir. İKT sahəsi üzrə nüfuzlu beynəlxalq texniki universitetlərlə tərəfdaşlıq qurulacaqdır. Əhalinin mənimsəməsi vacib hesab edilən rəqəmsal bacarıqları formalaşdırılacaqdır. Nəticədə texniki, texnoloji və innovasiya yönümlü ixtisaslar üzrə ali, orta ixtisas və peşə təhsili məzunlarının sayı ilbəil artacaqdır.

**Startapların bütün inkişaf mərhələləri üzrə maliyyələşmə mexanizmləri formalaşdırılacaqdır.** Startaplar və investorlar üçün məqsədli fiskal imtiyazlar sistemi hazırlanacaqdır. Zəruri sayda istedad ehtiyatı təmin ediləcəkdir. Nəticədə, startapların sayı ilbəil artacaqdır.

**"Abşeron vadisi" innovasiya klasteri yaradılacaqdır.** İnnovasiya gündəliyi formalaşdırılacaq və dövlət tərəfindən təşviq ediləcəkdir. İqtisadiyyatın prioritet sahələrində innovasiyalar tətbiq ediləcəkdir. Nəticədə, "Abşeron vadisi" çərçivəsində fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin sayı ilbəil artacaqdır.

**Yaşından, sosial statusundan, yaşayış yerindən asılı olmayaraq hamı üçün əlçatan, keyfiyyətli və müasir səhiyyə xidmətləri sistemi yaradılacaqdır.** Region və şəhərlərdə müasir tibb xidmətləri inkişaf etdiriləcəkdir. Əhalinin idmanla məşğul olması təşviq olunacaqdır. İstirahət və idman məqsədləri üçün yeni park və qoruqlar salınacaqdır. Beləliklə, doğulanda gözlənilən ömür uzunluğu 73,2 ildən 75,2 ilə çatacaq. ÜDM-də səhiyyə xidmətlərinin payı 2%-dən artaraq 4,3% təşkil edəcəkdir.

### 3.4. İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış üzrə strateji çərçivə

**İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış məqsədinin reallaşdırılması üçün əhalinin dayanıqlı məskunlaşması təmin olunacaqdır.** Əhalinin dayanıqlı məsklunlaşması ərazilərdə planlaşdırılan zəruri ilkin şərtlərin yaradılması ilə dəstəklənəcək. İşğaldan azad edilmiş ərazilərin təhlükəsizlik sistemi və infrastrukturla tam şəkildə əhatəsinə nail olunacaqdır. Qabaqcıl şəhərsalma qaydaları nəzərə alınmaqla bölgədə yaşayış və qeyri-yaşayış kompleksləri inşa ediləcək, müasir infrastruktura malik "ağıllı şəhər və ağıllı kənd" konsepsiyaları həyata keçiriləcəkdir. Bu əsasda bütün bölgə qabaqcıl standartlara uyğun sosial-iqtisadi və mədəni infrastrukturla tam təmin ediləcək. Kommunal xidmətlər şəbəkəsi, xüsusilə tullantıların səmərəli idarə edilməsi sistemi qurulacaq. Sosial xidmət infrastrukturu bərpa olunacaq. Nəticədə, ilkin strateji mərhələdə əhalinin təhlükəsiz, ləyaqətli və dayanıqlı əsasda planlaşdırılan məskunlaşmasına nail olunacaqdır.

**İşğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası təmin ediləcək.** İqtisadiyyatın qurulması məqsədilə iqtisadi fəaliyyətin canlanmasının sürətləndirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması təmin ediləcək. Ərazilərə yüksək texnoloji tutumlu investisiyaların cəlbi nəticəsində ixracyönümlü dəyər zənciri qurulacaq və dayanıqlı iş yerləri yaradılacaq. Regionda dairəvi iqtisadiyyata əsaslanan "ağıllı" biznes modelləri yaradılacaq. Faydalı qazıntı və mineral xammal mənbələri nəzərə alınmaqla iqtisadi fəaliyyətdə dəyər zənciri üzrə ixtisaslaşma təşviq ediləcək. Mədənçıxarma sahəsində təbii ehtiyatlar dövlət–özəl tərəfdaşlığı çərçivəsində dövriyyəyə cəlb olunacaq. Rəqabətqabiliyyətli, qabaqcıl infrastrukturla

təmin edilmiş aqrar istehsal və aqrar emal formalaşdırılacaqdır. Qarabağ bölgəsi turizm biznesi üçün cəlbedici, turistlər üçün əlçatan, unikal, keyfiyyətli və rəqabətli turizm xidmətləri təklif edən turizm destinasiyası olacaqdır. İlkin mərhələdə, bərpa və quruculuq prosesinə paralel olaraq özəl layihələr dəstəklənməklə ticarət-xidmət-logistika mərkəzləri şəklində iqtisadi zonaların, müasir istehsal infrastrukturu olan sənaye parkları və məhəllələrin yaradılması istiqamətində işlər görüləcək. İqtisadiyyatın sürətli bərpası və dayanıqlı inkişafı, o cümlədən rəqabətli istehsal və emal sahələrinin fəaliyyəti müasir infrastrukturla dəstəklənəcək, prioritet sahələrdə sahibkarlara geniş çeşidli stimullar veriləcək, vergi-gömrük azadolmaları və güzəştli maliyyələşmə alətləri geniş tətbiq olunacaq, kreditlərin və investisiyaların sığortalanması mexanizmi yaradılacaqdır. Ekoloji təmiz və iqtisadi cəhətdən səmərəli bərpa olunan enerji mənbələrindən istifadə genişləndirilməklə "yaşıl enerji zonası" konsepsiyası tətbiq ediləcək. Nəticədə, ümumi məhsul buraxılışında, ixracda və məşğulluqda işğaldan azad edilmiş ərazilərin payı davamlı artacaq. 19

*Bu Prioritet "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində icra ediləcəkdir.*

### 3.5. Təmiz ətraf mühit və "yaşıl artım ölkəsi" üzrə strateji çərçivə

**Təbii resurslardan dayanıqlı və davamlı istifadə təmin olunacaqdır.** Ətraf mühitə dost sənayeləşmə təşviq ediləcək, bu məqsədlə tullantıların səmərəli idarə olunması sistemi inkişaf etdiriləcəkdir. Hidrometeoroloji müşahidə və ətraf mühitin monitorinqi sistemi müasirləşdiriləcəkdir. Bioloji müxtəlifliyin qorunması, su bioresurslarının artırılması və akvakulturanın inkişafı təmin olunacaq, meşə ilə örtülü ərazilərin və yaşıllıqların mühafizəsi gücləndiriləcəkdir. Nəticədə, ölkə üzrə ümumi ərazidə yaşıllığın payı 12%-dən 12,3%-ə çatdırılacaq. İstifadəyə yararsız torpaq sahələrinin payı 25%-dən 15%-ədək azalacaqdır. Əhalinin içməli su ilə təminatı 70%-dən 85%-ə, suvarma suyu ilə təminatı 80%-dən 90%-ə çatacaqdır. Tullantıların təkrar emalı prosesinin əhatə dairəsi 20% (regionlarda 10%) təşkil edəcəkdir. Xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin ümumi sahəsinin ölkənin ümumi torpaq fonduna nisbəti 10,5% olacaqdır. Meşə fondunun 65%-i inventarlaşdırılacaq. Torpaqların 30%-də aqrokimyəvi analizlərin aparılması təmin olunacaqdır.

**Energetika sektorunda tənzimləmə mühiti təkmilləşdiriləcək və liberal bazar prinsipləri tətbiq olunacaqdır.** Bərpa olunan enerji mənbələrindən istifadə artırılacaq, enerji səmərəliliyi təmin ediləcəkdir. İqlim dəyişikliyinə qarşı mübarizə məqsədilə ekoloji təmiz nəqliyyat vasitələrindən və digər yaşıl texnologiyalardan istifadə genişləndiriləcəkdir. Nəticədə, energetika sahəsində dövlətin maliyyə yükü azaldılacaq və subsidiyaların mərhələli şəkildə aradan qaldırılması reallaşdırılacaqdır. Elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payı 2026-cı ilədək 24%-ə çatdırılacaqdır (2030-cu ilədək 30% hədəfinə uyğun olaraq).

## 4. 2022–2026-cı illərdə əsas hədəf indikatorlar

"2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın monitorinqi hər bir strateji məqsəd üzrə müəyyən olunmuş fəaliyyət indikatorları əsasında həyata keçiriləcəkdir.

### Strateji məqsədlər üzrə əsas hədəf indikatorları

| Milli Prioritetlər | Məqsədlər | İndikatorlar | 2021 | 2026 |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |

| | | | | |
|---|---|---|---|---|
| **Dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat** | Davamlı və yüksək iqtisadi artım | ÜDM-in artımı | 5,6% | 1,2 dəfə (2021=100) |
| | | Qeyri-neft/qaz ÜDM-in artımı | 7,2% | 1,3 dəfə (2021=100) |
| | | Qeyri-neft/qaz ixracının həcmi | 2,7 mlrd ABŞ dolları | 1.8 dəfə artım (2021=100) |
| | | Qeyri-neft/qaz sektoruna cəlb olunan birbaşa xarici investisiyaların həcmi | 790,4 mln ABŞ dolları | hər il 10–15% artım |
| | | Əhalinin içməli su ilə təminat səviyyəsi | 70% | 85% |
| | | Əkin sahələrinin suvarma suyu ilə təminat səviyyəsi | 80% | 90% |
| | Daxili və xarici təsirlərə dayanıqlıq | İllik inflyasiya səviyyəsi % | 12% | 4±2% |
| | | İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft/qaz ÜDM-ə nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı həddi | 23,5% | 17,5% |
| | | Məcmu dövlət borcunun ÜDM-ə nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı həddi (*o cümlədən 2022-ci il yanvarın 1-nə xarici dövlət borcu 14,9%, daxili dövlət borcu isə 3,3%)* | 18,2% | *30,0*[3] |
| **Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət** | İnkişafdan hər bir vətəndaşın bəhrələnməsi | Qadınların orta aylıq əməkhaqqının kişilərin orta aylıq əməkhaqqına nisbəti | 65,8% | 80% |
| | Paytaxt və regionların tarazlı inkişafı | Ümumi məhsul buraxılışında regionların payı | 35% (2020-ci il) | 42% |
| | XXI əsrin tələblərinə uyğun təhsil | PİSA-da mövqe | 402 bal (2018-ci il) | 422 bal (2028-ci il) |
| | | Dünyada top 800-lükdə təmsil olunan Azərbaycan universitetlərinin sayı | 0 | 3 |
| **Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı** | Yaradıcı və innovativ cəmiyyət | Yüksək və orta-yüksək texnoloji sənayenin əlavə dəyərinin ümumi əlavə dəyərdə xüsusi çəkisi | 10,1% (2020-ci il) | 15,0% |
| | Vətəndaşların sağlam həyat tərzi | Doğulanda gözlənilən ömür uzunluğu | 73,2 il (2020-ci il) | 75,2 il |
| | Dayanıqlı məskunlaşma | İşğaldan azad edilmiş ərazilərdə məskunlaşma | - | İlkin mərhələdə |

| | | | | |
|---|---|---|---|---|
| | | | | əhalinin planlaşdırılan məskunlaşması |
| **İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış** | İqtisadi fəaliyyətə reinteqrasiya | İşğaldan azad edilmiş ərazilərin ölkə üzrə iqtisadi fəaliyyətdə payının artırılması | - | Regonun ölkə üzrə əsas iqtisadi göstəricilərdə payının davamlı artması |
| | Yüksək keyfiyyətli ekoloji mühit | Ümumi ərazidə yaşıllığın payı<br><br>İstifadəyə yararsız torpaq sahəsinin payı | 12%<br><br>25% | 12,3% (əlavə 30 min ha sahə)<br>15% |
| **Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi** | "Yaşıl enerji" məkanı | Elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payı | 17,3% | 24% |

## 5. Sosial-iqtisadi inkişaf hədəflərinin dayanıqlı inkişaf məqsədləri ilə uyğunluğu

"2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinin 17 altməqsədi ilə sıx əlaqələndirlmişdir. "Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti"nə nail olmaqla Dayanıqlı İnkişaf Məqsədlərinin gerçəkləşdirilməsi də təmin ediləcəkdir.

### Strategiyanın Dayanıqlı İnkişaf Məqsədləri ilə əlaqəliliyi*

| | **Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat** | | **Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət** | | | **Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı** | | | **İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış** | | **Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi** | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti** | davamlı və yüksək iqtisadi artım | daxili və xarici təsirlərə dayanıqlıq | inkişafdan hər bir vətəndaşın bəhrələnməsi | yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət | paytaxt və regionların tarazlı inkişaf | XXI əsrin tələblərinə uyğun təhsil | yaradıcı və innovativ cəmiyyət | vətəndaşların sağlam həyat tərzi | dayanıqlı məskunlaşma | iqtisadi fəaliyyətə reinteqrasiya | yüksəkkeyfiyyətli ekoloji mühit | " yaşıl enerji" məkanı |
| **Məqsəd 1:** Yoxsulluğa son | ● | ● | ● | ● | | | | | ● | ● | | |
| **Məqsəd 2:** Aclığa son | ● | ● | ● | ● | | | | ● | | ● | | |
| **Məqsəd 3:** Yaxşı səhiyyə və rifah | | | | | | | | ● | ● | | | |
| **Məqsəd 4:** Keyfiyyətli təhsil | ● | | ● | | | ● | | | ● | ● | | |
| **Məqsəd 5:** Gender bərabərliyi | | | ● | ● | | | | ● | | ● | | |
| **Məqsəd 6:** Təmiz su və sanitariya | ● | | | | | | | | ● | | ● | |
| **Məqsəd 7:** Sərfəli və təmiz enerji | | | | | | | | | ● | | | ● |
| **Məqsəd 8:** Layiqli əmək və iqtisadi artım | ● | ● | ● | | | | ● | | ● | ● | | |
| **Məqsəd 9:** Sənaye, | ● | | | | | | ● | | ● | ● | | |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| innovasiya və infrastruktur | | | | | | | | | | | | |
| **Məqsəd 10:** Bərabərsizliyin azaldılması | | | • | • | • | | | | • | • | | |
| **Məqsəd 11:** Dayanıqlı şəhərlər və icmalar | • | | | | • | | | | • | • | • | • |
| **Məqsəd 12:** Məsuliyyətli istehlak və istehsal | • | | | | | | | | • | • | • | • |
| **Məqsəd 13:** İqlim dəyişikliyinə qarşı mübarizə | | | | | | | | | • | | • | • |
| **Məqsəd 14:** Dəniz ekosisteminin mühafizəsi | | | | | | | | | | | • | |
| **Məqsəd 15:** Torpaq ekosisteminin mühafizəsi | | | | | | | | | • | | • | |
| **Məqsəd 16:** Sülh, ədalətli və səmərəli institutlar | • | | | • | | | | | • | | | |
| **Məqsəd 17:** Məqsədlər üçün tərəfdaşlıq | • | | | | | • | • | | • | • | • | • |

** Qeyd: Azərbaycan Respublikası üçün təsdiq edilmiş Dayanıqlı İnkişaf Məqsədləri üzrə prioritetlərlə uyğunluğu əks etdirir.*

# 6. STRATEGİYANIN İCRASININ MONİTORİNQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 6.1. Strateji fəaliyyət istiqamətlərinin icrası

2022–2026-cı illərdə yeni sosial-iqtisadi inkişaf məqsədlərinə nail olmaq üçün bir-biri ilə əlaqəli olan fəaliyyət proqramları həyata keçiriləcəkdir. Qəbul olunmuş "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və müvafiq fəaliyyət proqramlarının icrası qoyulan hədəflər nəzərə alınmaqla monitorinq olunacaqdır. Monitorinqin nəticələri ilə bağlı hesabatlar hazırlanacaq və ciddi koordinasiyası tələb olunan proqram və ya tədbirlərə dair məlumatlar kommunikasiya ediləcəkdir. Proqramların monitorinqinə peşəkar yerli və xarici ekspertlər də cəlb olunacaqdır.

**Sosial-iqtisadi inkişaf üzrə Milli Prioritetlərin reallaşdırılması**




## 6.2. Hədəflərin monitorinqi və icrasının qiymətləndirilməsi

"2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın həyata keçirilməsi üçün monitorinq məqsədilə tədbirlər üzrə ilkin, aralıq və yekun nəticələr müəyyən edilir. Bu hədəflər müvafiq fəaliyyət istiqamətlərinin icra statusunu qiymətləndirməyə imkan verəcəkdir. Baza ili üzrə göstəricilər 2021-ci ilin məlumatlarına əsaslanılır. İlkin nəticələr Strategiyanın icra

olunduğu dövr ərzində hər ili, aralıq nəticələr illik əsasda olmaqla 2023, 2024 və 2025-ci illəri, yekun nəticələr isə 2026-cı ili əhatə edir. Nəticələr sistemli ölçüləcək, məqsədlərə nailolunma səviyyəsi, səmərəliliyi, yekun nəticələrin uyğunluğu və davamlılığı müəyyən ediləcəkdir. Bu, "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın illik əsasda icra statusunu qiymətləndirməyə imkan verəcəkdir. Sözügedən Strategiya üzrə monitorinq və qiymətləndirmə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi" Qaydasına əsasən həyata keçiriləcəkdir.

## 7. Tədbirlər planı

İlkin strateji dövrdə təməl şərtlərin geniş fəaliyyət istiqamətləri vasitəsilə işə salınmasını təmin edən tədbirlər planı hazırlanmışdır.

**“2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın Tədbirlər Planı**

| **Sıra N-si** | **Tədbirlər və layihələr** | **Əsas icraçı orqan (qurum)** | **Digər icraçılar** | **İcra müddəti** | **Nəticə indikatorları** | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | *baza ili üzrə göstəricilər* | *ilkin nəticələr* | *aralıq nəticələr* | | | *yekun nəticələr* |
| | | | | | *2021* | *icra müddəti ərzində hər il* | *2023* | *2024* | *2025* | *2026* |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** |
| **MİLLİ PRİORİTET 1. DAYANIQLI ARTAN RƏQABƏTQABİLİYYƏTLİ İQTİSADİYYAT** | | | | | | | | | | |
| **MƏQSƏD 1.1: DAVAMLI VƏ YÜKSƏK İQTİSADİ ARTIM** | | | | | | | | | | |
| **1.1.1.** | **Fəaliyyət istiqaməti: Sahibkarlara dəstək mexanizmlərinin effektivliyinin, ünvanlılığının və şəffaflığının artırılması** | | | | | | | | | |
| 1. | Sahibkarlığa dəstək mexanizmləri barədə məlumatlılıq səviyyəsinin yüksəldilməsi üçün vahid informasiya resursunun yaradılması və əlçatanlığının təmin olunması | İN | VXSİDA, RİNN, aidiyyəti qurumlar | 2022–2023 | | Vahid informasiya resursunun istifadəyə verilməsi | Vahid informasiya resursundan yararlanan sahibkarlıq subyektlərinin sayının artması | | | |
| 2. | Sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin qiymətləndirilməsi üzrə vahid çərçivə yaradılması | İN | MN, KTN, aidiyyəti qurumlar | 2022–2023 | | Vahid qiymətləndirmə və monitorinq çərçivəsinin qurulması | Dövlət dəstəyi alan sahibkarların 100%-nin monitorinqə cəlb edilməsi | | | |
| 3. | Sahibkarlara göstərilən maliyyə dəstəyinin həcminin artırılması | İN | MB, MN, İKZF | 2022–2026 | 2021-ci ildə 1902 layihənin maliyyələşdirilməsinə 130,6 mln manat güzəştli kredit verilmişdir<br>İKZF-nin təminatı ilə müvəkkil banklar tərəfindən sahibkarlara 251,7 mln manat məbləğində biznes | Təkmilləşdirilmiş dövlət dəstəyi mexanizminin tətbiqi | Dövlət dəstəyilə verilmiş (təminatsız və ya aşağı təminatlı) kreditlərin məbləğinin və sayının artması | | | Maliyyə dəstəyi alan sahibkarların iqtisadi və maliyyə göstəricilərinin yaxşılaşması |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | krediti verilmişdir | | | | | |
| **1.1.2.** | **Fəaliyyət istiqaməti: Kiçik və orta biznesin (KOB) resurslara, o cümlədən maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi** | | | | | | | | | |
| 1. | KOB İnkişaf Fondunun fəaliyyətə başlaması və KOB subyektlərinin maliyyə əlçatanlığının artırılması | İN | | 2022–2026 | | KOB İnkişaf Fondunun yaradılması | 10 mln manat həcmində layihələrin maliyyələşdirilməsi | 20 mln manat həcmində layihələrin maliyyələşdirilməsi | 30 mln manat həcmində layihələrin maliyyələşdirilməsi | KOB subyektlərinin iqtisadiyyatda payının artırılması |
| 2. | ABİF-in maliyyə mənbələrinin genişləndirilməsi | İN | MN, MB | 2022–2026 | 2021-ci il ərzində 1902 layihənin maliyyələşdirilməsinə 130,6 mln manat güzəştli kredit verilmişdir | ABİF tərəfindən maliyyələşdiriləcək yeni sahələrə dair təkliflərin həyata keçirilməsi | ABİF tərəfindən maliyyələşdirilən yeni prioritet sahələrin sayı üzrə müsbət dinamikaya nail olunması;<br>ABİF-in resurs portfelinin şaxəliliyinin iləbil yaxşılaşması | | | ABİF tərəfindən maliyyələşdirilən KOB subyektlərinin iqtisadi və maliyyə göstəricilərinin yaxşılaşması |
| 3. | İKZF-nin maliyyə mənbələrinin genişləndirilməsi | İKZF | MN, MB | 2022–2024 | | KOB-a verilmiş kreditlərə görə hesablanmış faizlərin bir hissəsinin subsidiyalaşdırılması | İKZF-nin zəmanəti ilə sahibkarlara manatla verilən və faiz subsidiyası ödənilən kreditlərin həcminin 7% artması | İKZF-nin kapitallaşması | | |
| 4. | KOB-ların iri ticarət şəbəkələrinə çıxışının genişləndirilməsi üçün dəstək mexanizmlərinin tətbiq edilməsi | İN | | 2022–2026 | | Satış məntəqələrində təmsil olunan KOB subyektlərinin sayının əlavə 10 ədəd artması | Satış məntəqələrində təmsil olunan KOB subyektlərinin sayının əlavə 20 | Satış məntəqələrində təmsil olunan KOB subyektlərinin sayının əlavə 30 ədəd artması | | Satış məntəqələrində təmsil olunan KOB subyektlərinin rentabelliyinin artması |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | ədəd artması | |
| 5. | KOB klasterləşmənin təşviqi | İN | MN, KTN, DTA | 2022–2026 | | KOB klasteri üzrə tənzimləyici çərçivənin yaradılması | KOB klasterləşməsi şəbəkəsinin genişləndirilməsi | KOB subyektlərinin iqtisadi göstəricilərdə payının artması |
| 6. | KOB subyektlərinin mövcud bizneslərinin genişləndirilməsi və onların yeni sahələr üzrə diversifikasiya təşəbbüslərinin həyata keçirilməsi istiqamətində daxili bazar araşdırmalarına dəstək mexanizminin artırılması | İN | | 2022–2026 | 14 daxili bazar araşdırmasının aparılmasına dəstək göstərilmişdir | Müvafiq sahədə dəstək mexanizminin tətbiqi | Hər il 10 daxili bazar araşdırmasının aparılmasına dəstək göstərilməsi | Daxili bazar araşdırmasına dəstək göstərilmiş KOB subyektlərinin iqtisadi və maliyyə göstəricilərinin yaxşılaşması |
| 7. | KOB subeyktlərinin satış imkanlarının genişləndirilməsi üçün onların yerli və beynəlxalq sərgilərdə istirakının dəstəklənməsi | İN | | 2022–2026 | 30 KOB subyektinin sərgilərdə iştirakına dəstək göstərilmişdir | | Hər il 60 KOB subyektinin sərgilərdə iştirakına dəstək göstərilməsi | Sərgidə iştirak etmiş KOB subyektinin ixrac göstəricilərinin və maliyyə vəziyyətinin yaxşılaşması |
| **1.1.3.** | **Fəaliyyət istiqaməti: KOB-ların maarifləndirmə imkanlarının genişləndirilməsi və təşviqi** | | | | | | | |
| 1. | Dövlətin biznesə (G2B) və biznesin biznesə (B2B) xidmətlərini özündə birləşdirən KOB evlərinin genişləndirilməsi və müvafiq elektron platforma vasitəsilə (e-KOB Evi) xidmətlərin təmin edilməsi | İN | | 2022–2026 | 2 KOB evi mövcuddur | e-KOB Evinin yaradılmasına dair təkliflərin həyata keçirilməsi | 2022–2024-cü illərdə hər il 2, 2025–2026-cı illərdə isə hər il 1 KOB evinin yaradılması;<br>Elektron platformadan istifadə edənlərin sayının hər il 10% artması | KOB xidmətlərindən istifadə edən təsərrüfat subyektlərinin sayının və məmnunluq səviyyəsinin artması |
| 2. | Sahibkarlara dəstək yönümlü infrastrukturların, o cümlədən KOB Dostu və | İN | | 2022–2026 | 27 rayon və şəhərdə KOB Dostu ofisi fəaliyyət göstərir | Dəstəkyönümlü infrastrukturun yaradılmasına dair təkliflərin həyata | Hər il 6 yeni KOB Dostu ofisinin yaradılması;<br>Hər il 900 təlimin keçirilməsi | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | KOB İnkişaf Mərkəzləri şəbəkəsinin fəaliyyətinin genişləndirilməsi, habelə sahəvi təlim proqramlarının hazırlanıb tətbiq edilməsi | | | | KOBİM-lər tərəfindən müxtəlif mövzularda 1600-ə yaxın təlim keçirilmişdir | keçirilməsi | | | | |
| **1.1.4.** | **Fəaliyyət istiqaməti: Qeyri-neft/qaz əmtəə və xidmətlər ixracının şaxələnməsi və həcminin artırılmasının dəstəklənməsi** | | | | | | | | | |
| 1. | Qeyri-neft/qaz ixracına dair statistikanın aparılmasına yenidən baxılması və vahid metodologiyanın tətbiqi | İN | DGK, DSK, MB | 2022–2023 | | Təkmil metodoloji çərçivənin tətbiqi | Qeyri-neft/qaz ixracına dair statistik bazanın təkmilləşdirilməsi | | | |
| 2. | İxrac əməliyyatlarının şəffaflığının artırılması mexanizmlərinin yaradılması | İN | MB, DGK | 2022–2024 | | Müvafiq normativ hüquqi aktlara dair təkliflərin qəbul olunması | İxraca dair normativ hüquqi bazanın müasir tələblərə uyğunlaşdırılması; İxrac əməliyyatlarının uçotunun təkmilləşdirilməsi | İxracın həcminin və sahibkarlıq subyektlərinin məmnunluğunun | | |
| 3. | Xarici bazarlarda ticarəti tənzimləyən maneələrin (ticarətdə tarif və qeyri-tarif maneələri) müəyyənləşdirilməsi sisteminin yaradılması | İN | KTN, DGK | 2022–2026 | | İxracatçılar üçün tarif və qeyri-tarif baryerləri barədə məlumatı əhatə edən pilot platformanın yaradılması və tətbiqi | Dövrün sonuna platforma istifadəçilərinin sayının 70-ə çatması | | | İxracın həcminin və sahibkarlıq subyektlərinin məmnunluğunun artması |
| 4. | İxracın ölkəmizdə elektron | İN | MN, MB, | 2022– | | E-ticarətin tətbiqinə | 100 KOB | | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | platformalar üzərindən tətbiqinin (e-ticarət) asanlaşdırılması | | RİNN, DGK | 2023 | | dair təkliflərin həyata keçirilməsi | subyektinin e-ticarətlə məşğul olması | | | |
| 5. | İxracatçıların maliyyə resurslarına və məhsullarına əlçatanlığın təmin olunması (Exim məhsulları) | İN | MB | 2022–2026 | | Pilot rejimdə tətbiq olunan Exim məhsullarının sayının müəyyən olunması | Dövrün sonuna Exim məhsullarından istifadə edən ixracatçıların sayının 70-ə çatması | | | İxracatçıların maliyyə resurslarına çıxışının genişlənməsi |
| 6. | İxracın genişləndirilməsi məqsədilə Azərbaycanın xarici ölkələrdəki ticarət nümayəndələri institutunun gücləndirilməsi | İN | XİN, MN | 2022–2026 | | Xarici ölkələrdəki ticarət nümayəndələrinin fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflərin həyata keçirilməsi | Dövrün sonuna ticarət nümayəndələri üzrə müəyyən olunmuş nəticələrin (qeyri-neft/qaz məhsullarının ixracı 50 mln ABŞ dolları, o cümlədən nümayəndələr vasitəsilə ölkəyə 10 investorun cəlbi və onlar tərəfindən investisiya layihələrinin tam və ya qismən maliyyələşdirilməsi) təmin olunması | | | Ticarət nümayəndələrinin qeyri-neft/qaz ixracında və investisiya cəlbində yüksək nəticə göstərməsi |
| 7. | Azərbaycan məhsullarının və “Made in Azerbaijan” brendinin hədəf bazarlarda aktiv təşviqi | İN | XİN, ƏMA | 2022–2026 | | Müvafiq sahədə hədəf bazarlarında irəliləmək üçün layihə həyata keçirilməsi | Dövrün sonuna Azərbaycan mənşəli qeyri-neft/qaz məhsullarının ixracının 4 mlrd ABŞ dolları həcminə çatması | | | “Made in Azerbaijan” brendi ilə ixrac olan məhsulların həcminin artması |
| 8. | Uğurlu ixracatçıların fəaliyyətinin – “Uğur hekayəsi”nin ictimailəşdirilməsi | İN | KTN | 2022–2026 | | Uğurlu ixracatçıların fəaliyyətinin təbliğinə dair layihə həyata keçirilməsi | Dövrün sonuna fəaliyyəti “Uğur hekayəsi” yaradan ixracatçıların sayının 50-ə çatması | | | Qeyri-neft/qaz ixracında daimi əmtəələrin həcminin artması |
| 9. | Sahibkarlar arasında ixrac hazırlığının gücləndirilməsi | İN | KTN | 2022–2026 | | İxrac Akademiyası və təlim proqramlarının tətbiqi | Dövrün sonuna 250 iştirakçıya sertifikat əsaslı təlimin keçirilməsi | | | Təlim keçmiş sahibkarların qeyri-neft/qaz ixracında payının artması |
| **1.1.5.** | **Fəaliyyət istiqaməti: Dövlət investisiyalarının səmərəliliyinin artırılması və dövlət–özəl tərəfdaşlığının genişləndirilməsi** | | | | | | | | | |
| 1. | Dövlət investisiya layihələrinin idarə | İN | | 2022–2023 | | Səmərəliliyin qiymətləndirilməsi | Dövlət investisiyala | | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | edilməsində səmərəliliyin yüksəldilməsi məqsədilə yeni Qaydanın qəbul edilməsi | | | | | üçün vahid Qaydanın tətbiqi | rının səmərəliliyin in artması | | | |
| 2. | Dövlət investisiya layıhələrinin icrasına monitorinq sisteminin yaradılması | İN | MN | 2022–2023 | | Layihənin icrası və monitorinq üzrə vahid sistemin yaranması | Dövlət investisiyaları cəlb olunan layihələrin səmərəliliyin in artması | | | |
| 3. | “Dövlət–özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsi | İN | MN, ƏN, aidiyyəti qurumlar | 2022–2023 | | Dövlət–özəl tərəfdaşlığı üzrə təkmil normativ hüquqi bazanın formalaşması | Dövlət investisiyalarında dövlət–özəl tərəfdaşlığının genişlənməsi | | | |
| **1.1.6** | **Fəaliyyət istiqaməti: Qeyri-neft/qaz sektoruna birbaşa xarici investisiyaların cəlbinin stimullaşdırılması** | | | | | | | | | |
| 1. | Qeyri-neft/qaz sahələrinə maraq göstərən yerli və xarici investorlarla işgüzar əlaqələrin qurulması | İN | aidiyyəti qurumlar | 2022–2026 | | Xarici və yerli investorlar ilə yerli qurumlar arasında effektiv dialoq çərçivəsinin qurulması | Dövrün sonuna Fortune 500 və Forbes 2000 indekslərində təmsil olunan 6 şirkət tərəfindən Azərbaycana investisiya qoyulması | | | Qeyri-neft/qaz sektoruna investisiya qoyuluşunda özəl sektorun payının artması; Adambaşına düşən BXİ-lərin həcminin artması |
| 2. | İnvestorların problem və çətinliklərini həll etmək üçün mütəmadi dövlət–biznes dialoqu çərçivəsinin qurulması | İN | aidiyyəti qurumlar | | | | Yaradılacaq müasir CRM (Müştərilərlə Əlaqələrin İdarə edilməsi Sistemi) sistemi çərçivəsində İnvestorların Narazılıqlarının İdarə olunması Sisteminin tətbiqi;<br>Sözügedən sistem vasitəsilə dövlət və biznes dialoqunun mütəmadi dəstəklənməsi;<br>Dövrün sonuna investorların fəaliyyətini tənzimləyən hüquqi çərçivənin təkmilləşdirilməsinə dair 10 layihənin hazırlanması | | | |
| 3. | İnvestisiya Təşviqi Forumunun və digər təşviqat tədbirlərinin | İN | aidiyyəti qurumlar | 2022–2026 | | Təşviqat tədbirlərinin hazırlanması və | Dövrün sonuna ən azı 5 yerli və xarici investisiya yönümlü tədbirin həyata keçirilməsi | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | keçirilməsi | | | | | tətbiqi | | |
| **1.1.7.** | **Fəaliyyət istiqaməti: İqtisadiyyatın şəffaflaşması, şaxələnməsi və investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı vergi siyasətinin tətbiq olunması** | | | | | | | |
| 1. | Kölgə iqtisadiyyatı ilə sistemli mübarizə aparılması, habelə şəffaflıq səviyyəsinin artırılması üçün vergi siyasətində rəqəmsallaşmanın genişləndirilməsi | İN | MN, aidiyyəti qurumlar | 2022–2026 | Təqdim edilmiş qaimə-faktura və onlayn kassa üzrə dövriyyələrin cəminin bəyan edilmiş dövriyyəyə nisbəti: 73,0% | Vergiyığmanın tam rəqəmsallaşması ilə bağlı təkliflərin həyata keçirilməsi | Dövrün sonuna rəqəmsal vergiyığma üzrə əhatəliliyin (təqdim edilmiş qaimə-faktura və onlayn kassa üzrə dövriyyələrin cəminin bəyan edilmiş dövriyyəyə nisbəti) xüsusi çəkisinin 75%-dən çox olması | Kölgə iqtisadiyyatının payının azalması |
| 2. | İqtisadiyyatın strateji sahələrinin inkişafının stimullaşdırılması, habelə investisiya və kapital qoyuluşu həcminin artırılması üçün vergi təşviqi alətlərindən effektiv istifadə edilməsi | İN | MN, aidiyyəti qurumlar | 2022–2026 | İxracın həcminin artım əmsalı + əməkhaqqı fondunun artım əmsalı + gəlirlərin artım əmsalı + investisiya qoyuluşlarının artım əmsalının cəminin orta göstəricisi: 7,5% | Vergi təşviqi sahəsində təkliflərin həyata keçirilməsi | Müəyyən olunmuş strateji sahələrdə illik əsasda ixracın həcminin artım əmsalı + əməkhaqqı fondunun artım əmsalı + gəlirlərin artım əmsalı + investisiya qoyuluşlarının artım əmsalının cəminin orta göstəricisinin 10%-dən yuxarı olması | İqtisadiyyatın strateji sahələrində iqtisadi aktivliyin artması |
| **1.1.8.** | **Fəaliyyət istiqaməti: Rəqəmsal iqtisadiyyata keçidin sürətləndirilməsi** | | | | | | | |
| 1. | Rəqəmsal iqtisadiyyatın inkişafı üzrə strategiyanın hazırlanması və tətbiqi | İN | MB, aidiyyəti qurumlar | 2022–2026 | | Strategiyanın hazırlanması və həyata keçirilməsi | Qeyri-neft/qaz sektoru üzrə iqtisadi aktivlikdə rəqəmsal iqtisadiyyatın payının davamlı artması | Qeyri-neft/qaz sektoru üzrə iqtisadi fəallıqda rəqəmsal iqtisadiyyatın xüsusi çəkisinin artması |
| 2. | Rəqəmsal iqtisadiyyatın inkişafı üçün tənzimləyici mexanizminin yaradılması | İN, RİNN | MB, aidiyyəti qurumlar | 2022–2026 | | Tənzimləyici mexanizmlərin tətbiq sahələri üzrə təkliflərin həyata keçirilməsi | Dövrün sonuna 5 pilot layihənin həyata keçirilməsi | |
| 3. | Rəqəmsal iqtisadiyyatın inkişafı üçün əlverişli infrastrukturun yaradılması | RİNN | İN | 2022–2026 | | Əlverişli infrastrukturun tətbiqi | Dövrün sonuna İKT-nin əlçatanlığı və İKT-dən istifadə, onlayn dövlət xidmətləri və məlumat mübadiləsi, İKT xidmətlərinin ixracı və hər 100 nəfərə düşən sabit sürətli internet xətti istifadəçilərinə dair beynəlxalq reytinq göstəricilərində ölkənin mövqeyinin ilbəil yaxşılaşması | |
| 4. | Milli iqtisadiyyatda 4-cü | İN | RİNN, | 2022– | | 4Sİ | 4Sİ texnologiyalarının tətbiqinin hər il | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | sənaye inqilabı (4Sİ) texnologiyalarının tətbiqi imkanlarının tədqiq olunması | | aidiyyəti qurumlar | 2026 | | texnologiyalarının tətbiqi üzrə təkliflərin həyata keçirilməsi | 5% artması | |
| **1.1.9.** | **Fəaliyyət istiqaməti: Dayanıqlı və rəqabətli kənd təsərrüfatının və aqrobiznesin inkişaf etdirilməsi** | | | | | | | |
| 1. | Aqrar sektorun dayanıqlı inkişafı üzrə sahəvi dövlət proqramının həyata keçirilməsi | KTN | İN | 2022–2026 | | Müvafiq sahədə təkliflərin həyata keçirilməsi | Aqrar sektorda yaradılan əlavə dəyərin hər il 4% artması | Aqrar istehsalın və emalın iqtisadi göstəricilərdə payının artması |
| 2. | Aqrar sektor üzrə istehsal və biznes yönümlü fiziki və rəqəmsal təhsil və təlim imkanlarının genişləndirilməsi | KTN | İN | 2022–2026 | | Aqrar təlim, məsləhət və innovasiya xidmətinə dair Fəaliyyət Planının hə-yata keçirilməsi | Dövrün sonuna həyata keçirilən maarifləndirmə tədbirlərində iştirakçıların sayının hər il 20% artması | Maarifləndirmə tədbirlərində iştirak edən fermerlərin iqtisadi və maliyyə göstəricilərinin yaxşılaşması |
| 3. | Ölkə üzrə ərzaq təminatı xəritəsinin hazırlanması | İN | KTN, DGK, AQTA | 2022–2026 | | İdxal və yerli istehsala əsaslanan *qida* zənciri üzrə təchizat xəritəsinin tətbiqi[4] | Ərzaq təminatı sahəsində sahibkarlıq fəaliyyətinin hər il genişlənməsi | Ərzaq təminatının yaxşılaşması və məlumatlara əlçatanlıq səviyyəsinin artması |
| 4. | Aqrobiznes sahəsində sahibkarlığın dəyər zənciri üzrə inkişafı və effektiv institutlaşması | KTN | İN, AQTA | 2022–2026 | | Effektiv institutlaşma üzrə təkliflərin həyata keçirilməsi | Dövrün sonuna emal və satış zənciri üzrə assosiasiyalarının sayının 20% artması;<br>Dövrün sonuna sahəvi assosiasiyalarda birləşən sahibkarların sayının 2 dəfə artması;<br>Dövrün sonuna yerli və beynəlxalq sertifikatlarla təmin olunan sahibkarların sayının 40% artması | Dəyər zəncirində aqrobiznesin payının artması |
| **1.1.10.** | **Fəaliyyət istiqaməti: Turizm sektorunun davamlı inkişafını təmin etmək üçün strateji, institutsional və maliyyələşmə mexanizmlərinin gücləndirilməsi** | | | | | | | |
| 1. | Turizmin inkişafı üzrə dövlət proqramlarının hazırlanması və icrası | DTA | İN, aidiyyəti qurumlar | 2022–2026 | | Müvafiq sahədə dövlət proqramlarının | Dövrün sonuna turizm üzrə daxilolmaların 20% artması | Turizmin qeyri-neft/qaz ÜDM-də xüsusi |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | hazırlanması və qəbulu | | çəkisinin artması |
| 2. | Daxili və gəlmə turizminin qeyri-mövsüm dövründə təşviqi əsas olmaqla ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi | DTA | aidiyyəti qurumlar | 2022–2026 | Hazırda turizm mövsümü 4 ay hesab edilir | Qeyri-mövsüm dövründə turizmin təşviqinə dair təkliflərin həyata keçirilməsi | Dövrün sonuna qeyri-mövsüm dövrünün 15% azalması | Qeyri-mövsüm dövründə turizmin turizm gəlirlərində xüsusi çəkisinin artması |
| 3. | Ölkənin müxtəlif şəhər və rayonlarında dövlət–özəl tərəfdaşlığı çərçivəsində əcnəbi vətəndaşlara tibbi turizm çərçivəsində xidmət göstərən tibb müəssisələrinin sayının artırılması | SN | *TƏBİB*, DTA[5] | 2022–2026 | | Tibbi turizmin inkişafı ilə bağlı təkliflərin həyata keçirilməsi | Dövrün sonuna 2 tibb müəssisəsinin “Joint Comission İnternational” akkreditasiyasını əldə etməsi<br>Dövrün sonuna Azərbaycanın Medical Tourism İndex (MTİ) üzrə reytinq cədvəlinə daxil olması | Tibbi turizmin turizm gəlirlərində xüsusi çəkisinin artması |
| 4. | Ölkənin turizm potensialının genişləndirilməsi üçün marketinq və kommunikasiya planının icrası | DTA | İN, RİNN, AZAL | 2022–2026 | Hədəf turizm bazarlarında Azərbaycanla bağlı tur paketlər təqdim edən turizm şirkətlərinin sayı: 200 şirkət | Yeni kommunikasiya və icra planının həyata keçirilməsi | Hədəf turizm ölkələrində hər il 50 milyon auditoriyaya çıxışın əldə edilməsi, habelə hədəf turizm bazarlarında Azərbaycanla bağlı tur paketlər təqdim edən turizm şirkətlərinin sayının hər il 20% artması | Turizm üzrə cəmi xalis daxilolmaların pozitiv dinamikasına nail olunması |
| 5. | Turizm sektoru iştirakçılarının fəaliyyətinin mütəmadi dialoq formasında əlaqələndirilməsi mexanizminin qurulması | DTA | aidiyyəti qurumlar | 2022–2026 | | Regional səviyyədə turizm əlaqələndirmə mexanizmi barədə təkliflərin həyata keçirilməsi | Ən azı 2 regional turizm şurasının yaradılması | |
| 6. | Turistlərin səyahət şərtlərini yaxşılaşdırmaq üçün viza prosedurlarının sadələşdirilməsi tədbirlərinin görülməsi | XİN | DTA, VXSİDA, aidiyyəti qurumlar | 2022–2026 | | Viza prosedurlarının sadələşdirilməsi ilə bağlı təkliflərin həyata keçirilməsi | 2019-cu illə müqayisədə sərhəddə viza rejimi və ya vizasız rejim tətbiq edilən yeni ölkələr üzrə gələn ziyarətçilərin sayının hər il 7,5% artması | Sərhəddə viza rejimi və ya vizasız rejim tətbiq edilən ölkələrin sayının artması, bu sahədə ölkənin beynəlxalq |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | reytinqlərdə mövqeyinin yaxşılaşması |
| 7. | Hədəf turizm bazarları ilə nəqliyyatkommunikasiya əlaqələrinin şaxələndirilməsi və təkmilləşdirilməsi | RİNN | DTA, İN, DGK, VXSİDA, AZAL, ADY, aidiyyəti qurumlar | 2022–2026 | Turizm məqsədilə səfər edənlərin sayında hava nəqliyyatından istifadə edənlərin payı: 40,1%(2019-cu il); Dəmir yolu nəqliyyatından istifadə edənlərin payı: 12,9% (2019-cu il) | Müvafiq sahə üzrə təkliflərin həyata keçirilməsi | Turizm məqsədilə səfər edənlərin sayında hava nəqliyyatından istifadə edənlərin payının dövrün sonuna 50%-ə çatması;<br>Azərbaycana səfər edən ziyarətçilərin sayında dəmir yolu nəqliyyatından istifadə edənlərin payının dövrün sonuna 15%-ə çatması;<br>Azərbaycana avtomobil nəqliyyatı ilə səfər edənlərin sayının hər il 35% artması;<br>Şimal, cənub, qərb istiqamətləri əsas olmaqla ən azı üç quru dövlət sərhədindən buraxılış məntəqələrinin infrastrukturunun turizm baxımından müasir tələblərə uyğunlaşması | | | Turizm üzrə cəmi xalis daxilolmaların pozitiv dinamıkasına nail olunması |
| **1.1.11.** | **Fəaliyyət istiqaməti: Tranzit potensialının reallaşdırılması və ticarət-logistika sahəsinin inkişaf etdirilməsi** | | | | | | | | | |
| 1. | Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində potensial roluna əsaslanan tranzit daşımaların inkişafına hədəflənən Vahid Nəqliyyat və Logistika Strategiyasının həyata keçirilməsi | RİNN | İN, DGK, AİH, ADY, AXDG, AZAL, BBDTL, ABADA | 2022–2023 | | Vahid Nəqliyyat və Logistika Strategiyasının tətbiqi | Tranzit nəqliyyat üzrə gəlirlərin artması; Azərbaycanın regional qovşağa (hab) və e-ticarət mərkəzinə çevrilməsi | | | |
| 2. | Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ərazisində əlavə dəyər yaradan xidmətlərin təşkil edilməsi | BBDTL | RİNN, İN | 2022–2026 | Əlavə dəyər yaradan 1 xidmət təşkil olunub | Müvafiq sahədə əlavə dəyər yaradan xidmətlərin təşkili üzrə tədbirlərin həyata keçirilməsi | Hər il əlavə dəyər yaradan 1 xidmətin, ümumilikdə dövrün sonuna əlavə dəyər yaradan 5 xidmətin təşkil edilməsi | | | Müvafiq sahə üzrə yeni yaradılmış əlavə dəyərin artması |
| 3. | Ölkə ərazisində dövlət– | RİNN | İN, | 2022– | | TIR parklarının | Dövlət–özəl tərəfdaşlığı | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | özəl tərəfdaşlığı əsasında yük avtonəqliyyat parklarının (TIR parklarının) yaradılması | | ABADA | 2024 | | yaradılmasına dair tədbirlərin həyata keçirilməsi | çərçivəsində yaradılmış yük avtonəqliyyat parklarının tranzit və idxal-ixrac yükdaşımaları həyata keçirən avtonəqliyyat vasitələrinə göstərilən xidmətlərdə payının artması;<br>Beynəlxalq rəqabətədavamlı sürücülərin inkişafını təşviqi | | |
| 4. | Tranzit daşıma və logistika işinin təkmilləşdirilməsi üçün müasir tələblərə cavab verən normativ hüquqi bazanın yaradılması | RİNN | İN | 2022–2024 | | Nəqliyyat ekspedisiya fəaliyyətini reqlamentləşdirən normativ hüquqi bazanın təkmilləşdirilməsi | Tranzit daşıma və logistika əməliyyatlarının həcminin artması | | |
| 5. | Tranzit daşıma və logistika işinin təkmilləşdirilməsi üçün rəqəmsal texologiyadan istifadənin genişləndirilməsi | RİNN | İN, DGK, BBDTL, ADY, AXDG | 2022–2025 | | e-CMR qoşulma və Protokolun bəndlərinin icra edilməsi | Beynəlxalq daşımaların iştirakçılarının vahid rəqəmsal platformada birləşdirilməsini təmin edən sistemin yaradılması;<br>Yüklərin bütün hərəkət marşrutu boyunca izlənməsi (tracking) xidmətinin təmin olunması | Həyata keçirilən tranzit yükdaşıma müddətləri nin azaldılması , yükdaşıma lar üzrə daşıma qaydalarını n, şərtlərinin və prosedurla rının şəffaflaşma | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | sı, asanlaşması və sadələşməsi | |
| **1.1.12.** | **Fəaliyyət istiqaməti: İqtisadi zonaların potensialının reallaşdırılması və yeni sənaye zonalarının yaradılması** | | | | | | | | |
| 1. | Ələt Azad İqtisadi Zonasının fəaliyyətə başlaması | Ələt AİZ | İN | 2022–2025 | | Ələt Azad İqtisadi Zonasının infrastrukturla tam təminatı | Ələt Azad İqtisadi Zonasının fəaliyyətə başlaması | | |
| 2. | Ölkədə özəl sənaye məhəllələrinin yaradılması mexanizminin hazırlanması və onların reyestrinin aparılması | İN | MN, ƏN | 2023–2026 | | Özəl sənaye məhəllələrinin inkişafına dair mexanizmlərin tətbiqi | 1 özəl sənaye məhəlləsinin fəaliyyətə başlaması | | Qeyri-neft/qaz sənaye dövriyyəsində özəl sənaye məhəlləsinin xüsusi çəkisinin artması |
| 3. | Sənaye zonalarında (sənaye parkları və məhəllələri) idxalı əvəzləyəcək və ixrac potensiallı məhsulların istehsalının təşviq edilməsi | İN | MN, DGK | 2022–2026 | | İxrac potensiallı məhsulların istehsalının təşviqnə dair təkliflərin həyata keçriilməsi | Dövrün sonuna sənaye zonalarında istehsal olunan məhsulların qeyri-neft/qaz sənayesi üzrə istehsal həcmində xüsusi çəkisinin 15%-ə çatması<br>Dövrün sonuna sənaye zonaları üzrə ixrac olunan məhsulların ölkə üzrə qeyri-neft/qaz sənaye məhsullarının ixracında xüsusi çəkisinin 25%-ə çatması<br>Hər il sənaye zonalarında idxalı əvəzləyəcək və ixrac potensiallı məhsulların istehsalını həyata keçirən azı 1 müəssisənin rezident kimi qeydiyyata alınması və ya istehsal fəaliyyətinə başlaması | | Sənaye zonalarında idxalı əvəzləyəcək və ixrac potensiallı məhsulların həcminin artması |
| **1.1.13.** | **Fəaliyyət istiqaməti: Tarif siyasətinin sadələşdirilməsi** | | | | | | | | |
